www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 iyul 2016-cı il Cümə № 152 (6473) Qiymәti 60 qәpik

Xəbər

## Yanan binaya görə tutulanlardan biri öldü

yazısı səh.15-də

Gündəm

### Milli təhlükəsizlik konsepsiyası, erməni və İŞİD təhdidi...



Dünyanın super gücü olan Amerika Rusiyanın Ukraynaya müdaxiləsindən sonra öz milli təhlükəsizlik konsepsiyasını yenilədi, bəs Azərbaycan?

yazısı səh.7-də

### "Daşkəsən Filizsaflaşdırma"nın özəlləşdirməsi-alıcı tapılacaqmı?

yazısı səh.6-da

### Sərksiyan Qarabağ danışıqlarını pozmaq istəyir

yazısı səh.9-da

### Xəzərin hüquqi statusu "su altından" çıxmır

yazısı səh.12-də

### YAP rəhbərliyinin "dialoqa ehtiyac yoxdur" iddiasına müxalifətdən cavab

yazısı səh.5-də

### "Şakro kürd"ü azərbaycanlı satmayıb-"Lənkəranski" onun düşmənidirmi?

yazısı səh.10-da

### İri şirkətlər Azərbaycandan gedir-səbəb

yazısı səh.7-də

### Şəffaflıq Koalisiyasında qarşılıqlı ittihamlar

yazısı səh.6-da

### Suriyadan qayıdan azərbaycanlılardan ilginc məhkəmə etirafları

yazısı səh.15-də

### Bakının içməli suyunun sirri-problem köhnə borulardır

yazısı səh.13-də

### İlqar Məmmədovun məhkəməsindən xəbər yoxdur

yazısı səh.3-də

## 4 günlük müharibə ilə bağlı yeni versiya

# "ABŞ SURİYANI QARABAĞA DƏYİŞDİRMƏK İSTƏYİR" - PUTİNİN YAXIN ADAMINDAN SENSASİON İDDİA

Postsovet məkanındakı münaqişələr iki güc mərkəzinin maraq mübarizəsində "nifaq alması"na çevrilir; **aprel hadisələrini ABŞ-ın qızışdırdığını deyən rusiyalı siyasi analitik:** "Bu hadisələrə bir neçə ay qalmış Bakının mehmanxanalarında amerikalı hərbi təlimatçılardan ibarət qruplar yerləşdirilib"; **"Stratfor":** "Rusiya münaqişənin həllini istəmir..."




yazısı səh.8-də

## Eldar Mahmudov şeyxə də "haqq qoymaq" istəyib

Sabiq MTN şefi Elşən Mustafaoğlunun ətrafında hiyləgər oyun qurub; əsas hədəf isə Allahşükür Paşazadə olub; "Bibiheybət" məscidində nəzir pulları ilə bağlı da "araşdırma" aparılıb

yazısı səh.3-də



Pyotr Poroşenko

### Ukrayna prezidentindən Bakıda mühüm mesajlar

yazısı səh.4-də



Azər Tağıyev

### Vəkillər Kollegiyasının sədri "ömürlük" olur

yazısı səh.5-də



Tereza Mey

### Bakıdan Britaniya hökumətinə proqnoz: "Ömrü uzun olmayacaq"

yazısı səh.12-də

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016



## Kılıçdaroğlu Ərdoğana 50 min təzminat ödəyəcək

**Ankara Məhkəməsi prezident Rəcəb Tayyib Ərdoğanın partiyasının 35-ci qurultayı ilə bağlı TBMM-dəki qrup toplantısında işlətdiyi ifadələrə görə, CHP rəhbəri Kamal Kılıçdaroğlunu cəzalandırıb. Onun barəsində verilən şikayətlər əsasında 2 ayrı iddia üzrə ümumilikdə 50 min lirə təzminat ödəməsi qərarı verilib.**

Lent.az-ın məlumatına görə, hakim Ayxan Yılmaz iddianı qismən təmin edib. Kılıçdaroğlunun hər bir iddia üzrə prezident Ərdoğana 25 min lirə təzminat ödəməsinə qərar verilib.

Qeyd edək ki, iddia ərizəsində prezident Rəcəb Tayyib Ərdoğana qarşı ağır təhqirə görə, Kılıçdaroğlundan 100 min lirə mənəvi təzminat tələb edilmişdi.

## Azərbaycan sərhədyanı bölgədə hasar tikəcək

**Azərbaycan hökuməti yerli əhalini erməni atəşindən qorumaq məqsədilə Tərtər rayonunun bir sıra kəndlərində daş-beton hasarlar tikməyi planlaşdırır. Virtualaz.org "İnterfaks"a istinadən bildirir ki, bununla əlaqədar Azərbaycan Ərazilərin Bərpası və Yenidən qurulması Agentliyi hasarı tikəcək podratçı şirkəti müəyyənləşdirmək üçün təkliflərin qiymətləndirilməsini aparır.**

Hasarlar cəbhə xəttindən 3 kilometr aralıda yerləşən Qaradağlı və Qapanlı kəndlərində tikiləcək. Tikinti işləri Azərbaycanın dövlət büdcəsinin vəsaiti hesabına aparılacaq.

## Türkiyənin xarici işlər naziri Azərbaycana gəlir

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycana rəsmi səfərə gəlib. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb. Məlumatda qeyd edilir ki, M.Çavuşoğlu səfər zamanı azərbaycanlı həmkarı Elmar Məmmədyarovla Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesini, regionda və dünyadakı vəziyyəti müzakirə edəcək.**

## ATƏT bu gün monitorinq keçirəcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 15-də Azərbaycan Respublikası Füzuli rayonu Horadiz şəhərinin cənubundan keçən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.**

Virtualaz.org Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, monitorinqi Azərbaycan Silahlı Qüvvələrinin nəzarət etdiyi ərazidə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Den Harvey keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Piter Şvedberq və YSPQ-in rəhbəri polkovnik Hans Lampalzer keçirəcəklər.

## İlin sonunadək dolların uçot dərəcəsi iki dəfə artırılacaq

**Böyük Britaniyanın Avropa İttifaqından çıxması ABŞ iqtisadiyyatına ciddi zərər vurmayacaq. "APA-Economics" xəbər verir ki, bunu Filadelfiyanın Federal Ehtiyat Bankının (Federal Ehtiyatlar Sisteminin (FED) tabeliyində fəaliyyət göstərir) prezidenti Patrik Harker deyib.**

Bununla yanaşı, o qeyd edib ki, ilin sonunadək FED uçot dərəcəsini iki dəfə qaldıra bilər: "Hesab edirəm ki, inflyasiya hədəflənən səviyyəyə gələn il qayıdacaq. Mənim gözləntilərimə görə, ilin sonunadək uçot dərəcəsi iki dəfə artırılacaq".

Britaniyada keçirilən referendumun birjalarda qeyri-müəyyənlik yaratdığını etiraf edən P.Harker qeyd edib ki, ABŞ üçün "Brexit"in təsiri o qədər də ciddi deyil.

Onu da qeyd edək ki, P.Harker FED-in pul-kredit siyasəti ilə bağlı səsverməsində iştirak etmək hüququna malik deyil.

# YAP Siyasi Şurasınının üzvü sərt danışdı:

# "Hansısa imkanlı adam..."

### Komitə sədri: "Torpağını becərməyən şəxslər cəzalandırılacaq"

**"Azərbaycanda torpağını becərməyən şəxslər qanuna müvafiq şəkildə cəzalandırılacaq". Bunu ölkə.az-a açıqlamasında Milli Məclisin Regional məsələlər komitəsinin sədri, Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının və İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib.**

Prezident İlham Əliyevin sözügedən məsələ ilə bağlı çıxışlarına da toxunan A.Rəhimzadə deyib ki, ölkə başçısının toxunduğu bu məsələ çox vacib əhəmiyyət daşıyır.

**Onun sözlərinə görə, Azərbaycanın onsuzda əkinə yararlı torpaqları azdır:**

"Hansısa imkanlı adam torpaq alır, ancaq ondan istifadə etmir. Sözsüz ki, bu cür hallar düzgün deyil və qanuna da ziddir. Ona görə də qanuna uyğun olaraq bu cür şəxslərə qarşı vergi tutulmalıdır. Biz torpaqlardan səmərəli istifadə etməliyik.

Qanunda da göstərilir ki, hektarlarla torpağı alan şəxs onu becərməlidir. Əks halda o cərimə olunacaq. Burada söhbət təkcə məmurlardan getmir. Kimin pulu varsa, gedib torpaqları alıb boş saxlayır, onu becərmir. Ancaq indi qanunda da nəzərdə tutulur ki, torpağı becərməyən şəxslər buna görə vəsait ödəməli olacaqlar. Alınan torpaqların istifadə olunması mütləqdir".



Arif Rəhimzadə

**Komitə sədri qeyd edib ki, artıq bu cür şəxslərin qanunla cəzalandırılması nəzərdə tutulur:**

"Əlbəttə ki, torpağı becərməyən şəxslər cəzalandırılacaq. Qanunla hansı cəzanın tətbiqi nəzərdə tutulursa, bu həyata keçiriləcək".

Xatırladaq ki, Prezident İlham Əliyev iyulun 10-da Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında deyib ki, bəzi hallarda torpaqlar zəbt edilib, minlərlə torpaq sahələri hasarlanıb:

"Orada heç bir fəaliyyət göstərilmir. Mən göstəriş vermişəm, arayış da hazırlayıb veriblər və orada dövlət məmurlarının adları da var. Zəbt edilmiş o torpaqların bir hissəsi onlara məxsusdur.

Əlbəttə ki, biz torpaqlardan daha da səmərəli şəkildə istifadə etməliyik. Burada təkliflər səsləndi. Mən bu təklifləri, xüsusilə heyvandarlıqla bağlı olan təklifləri dəstəkləyirəm. İndi heyvandarlıq qapalı yerlərdə inkişaf edir. Ona görə, o qədər də böyük örüş torpaqlarına ehtiyac yoxdur. Bu torpaqlardan səmərəli şəkildə istifadə olunmalıdır ki, ərzaq təhlükəsizliyi tam təmin edilsin və çox böyük ixrac potensialı da yaradılsın".

## Məhkəmə Nardaran sakininə "yox" dedi

**Bakı Apelyasiya Məhkəməsi Nardaran hadisələrinə görə tutulan Ələkbər Qurbanovun barəsində hökmdən verilən şikayəti təmin etməyib. Bu barədə vəkil Osman Kazımlı "Azadlıq" radiosuna bildirib.**

Onun sözlərinə görə, hakim şikayəti təmin etməyərək birinci instansiya məhkəməsi kimi Suraxanı Rayon Məhkəməsinin çıxardığı hökmü dəyişdirilmədən qüvvədə saxlayıb.

Xatırladaq ki, Daxili İşlər Nazirliyi (DİN) 2015-ci il noyabrın 26-da Bakının Nardaran qəsəbəsində xüsusi əməliyyat keçirib. Əməliyyat zamanı ikisi polis, dördü mülki vətəndaş olmaqla 6 nəfər həyatını itirib.

Bundan sonra irimiqyaslı həbslər başlayıb. Əsasən dövlət qeydiyyatı olmayan "Müsəlman Birliyi" Hərəkatının rəhbər və və sıravi üzvləri həbsə məruz qalıblar. Təşkilatın sədri Tale Bağırov və çoxsaylı tərəfdarları həbs edilib. Ölkə prokurorluğu Nardaran hadisələrilə bağlı 70-ə yaxın şəxsin həbs edilməsi barədə ictimaiyyətə açıqlama verib.

Bu sırada həbs edilənlərdən biri də Ə.Qurbanovdur. O, Cinayət Məcəlləsinin 228.1-ci (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) maddəsi ilə ittiham olunub.

**Sabunçu Rayon Məhkəməsinin hökmü ilə Ə.Qurbanov 2 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.**

## Yeni rektor müəllimlərin geyimindən başladı

**"Bakı Slavyan Universitetində (BSU) ciddi olmasa da, müəyyən kadr islahatları aparılacaq". "Trend" bildirir ki, bunu universitetə yeni təyin olunmuş rektor Nurlana Əliyeva jurnalistlərə deyib.**

Onun sözlərinə görə, BSU-da müəllim və şagirdlərin geyimi ilə bağlı ciddi tələblərin qoyulması düzgün deyil: "Müəllimin zahiri görkəmi və daxili bütövlüyü bir-birinə uyğun olmalıdır. Müəllimin zahirinə baxan kimi bilinməlidir ki, bu, müəllimdir. Tələbələrin qarşısında mühazirə oxuyarkən digər əlamətlərlə diqqəti cəlb etməməlidir. Özünün səliqə-səhmanı və ciddiliyi ilə diqqəti cəlb etməlidir. Müəllimin geyimi korporativ geyim olmalıdır. Tələbənin geyimi isə öz ruhuna, tutduğu mövqeyə və gördüyü işə uyğun olmalıdır".

## SOCAR-dan 98 milyonluq ödəniş

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən 2016-cı ilin iyun ayında dövlət büdcəsinə 98 milyon 961 min manat vəsait ödənilib. "Qafqazinfo" xəbər verir ki, şirkətin yaydığı məlumata görə, ümumiyyətlə, cari ilin yanvar-iyun aylarında büdcəyə 661 milyon 742 min manat vəsait ödənilib.**

Bundan əlavə, bu ilin iyun ayında SOCAR Dövlət Sosial Müdafiə Fonduna 12 milyon 173 min manat vəsait köçürüb. Qeyd edək ki, bu göstərici ötən ilin iyun ayı ilə müqayisədə 231 min manat və ya 101,9 faiz çox olub. Ümumiyyətlə, 2016-cı ilin yanvar-iyun aylarında Şirkət tərəfindən Dövlət Sosial Müdafiə Fonduna ödəniş 69 milyon 532 min manat təşkil edib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

## Mariya Zaxarova optimistdir

### "Dağlıq Qarabağ münaqişəsinin həllində xoşagəlməz sürprizdən söhbət gedə bilməz"

**"Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlarda hansısa xoşagəlməz sürprizin olacağından söhbət gedə bilməz". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi Mariya Zaxarova deyib.**

Jurnalistin münaqişənin nizamlanması ilə bağlı danışıqlar prosesinin gizli saxlanılmasının Ermənistan və Azərbaycan cəmiyyətləri üçün xoşagəlməz sürprizlə nəticələnə biləcəyi və bunun təhlükəli olması ilə bağlı sualını cavablandıran Rusiya XİN sözçüsü qeyd edib ki, müzakirə olunan məsələlərin gizli saxlanılmasında qorxulu heç nə yoxdur: "Əgər danışıqlar prosesi tərəflərin iştirakı ilə getməsəydi, o zaman sizin dediyiniz kimi, təhlükəli olardı. Danışıqlar prosesində dövlət başçıları, nazirlər, hər iki tərəfdən ekspertlər iştirak edir. Onların hər şeydən xəbəri var. Ona görə də, bu prosesdə xoşagəlməz sürprizdən söhbət gedə bilməz".

**M.Zaxarova bildirib ki, qorxulu məqam danışıqlar prosesinin razılıq olmadan nəticələnməsi olardı:** "İndi fəal danışıqlar gedir. Bu, uzun sürən bir prosesdir. Qorxulu məqam danışıqlar prosesinin pozulmasıdır. İndi çox vacib məqamdır. Bütün komanda ümumi nəticənin əldə edilməsinə nail olmalıdır. Biz Bakıda və Yerevanda olduq. Küçədə sadə insanlar bizə yaxınlaşıb, fikirlərini bildirirdilər, onlar daha qan tökülməsini, insan itkilərinin olmasını istəmirlər. Bizim də əsas məqsədimiz məhz budur".

**Erməni jurnalistin Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Bakıya səfəri zamanı Dağlıq Qarabağ münaqişəsinin müzakirəsinin danışıqlar prosesinə necə təsir edəcəyi ilə bağlı sualına M. Zaxarova belə cavab verib:** "Bu sualın çox asan bir cavabı var. Hər hansı konstruktiv kömək Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin xeyrinədir".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) əməkdaşları tərəfindən 2014-cü ilin dekabrında dövlətə xəyanətdə ittiham edilərək həbs olunan ilahiyyatçı Elşən Mustafaoğlu məhkəməsində olduqca ilginc açıqlama verib. Deyib ki, onu həbs edəndən sonra 2 gün zülm verməklə milli qəhrəman Rövşən Əkbərov və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadənin əleyhinə ifadə verməsini tələb ediblər.**

# Eldar Mahmudov şeyxə də "haqq qoymaq" istəyib

## Sabiq MTN şefi Elşən Mustafaoğlunun ətrafında hiyləgər oyun qurub; əsas hədəf isə Allahşükür Paşazadə olub; "Bibiheybət" məscidində nəzir pulları ilə bağlı da "araşdırma" aparılıb



**E.Mustafaoğluna elan edilmiş ittihamda onun İranın xeyrinə casusluq etdiyi yer alır.** İlahiyyatçı ittihamı qəbul etmir, saxta, hər cümləsinin yalan olduğunu bildirir. Məsələnin maraqlı tərəfi odur ki, E.Mustafaoğlu həbsindən 1 ay əvvəl - 2014-cü il noyabrın 23-24-də şeyxin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində rəsmi səfərdə olub. Qonşu ölkənin tanınmış din alimlərindən olan Ayətullah əl-üzma Nasir Məkarim Şirazinin dəvəti ilə gerçəkləşən səfərdən məqsəd İranın Qum şəhərində "Ekstremist və təkfirçi cərəyanlar İslam alimlərinin baxışında" mövzusunda keçirilən Beynəlxalq konfransda iştirak etmək olub. Səfərdə Şeyxülislam Allahşükür Paşazadə, QMİ sədrinin birinci müavini, Müfti Hacı Salman Musayev, QMİ-nin Elmi-Dini Şurasının sədri, Akademik Vasim Məmmədəliyev, QMİ-nin Nəşriyyat şöbəsinin müdir müavini, video-elektron bölməsinin rəhbəri Elşən Mustafayev, QMİ-nin Fətva şöbəsinin əməkdaşı Mircəfər Əyyubov, QMİ sədrinin səlahiyyətli nümayəndəsi, "Məşhədi Dadaş" məscidinin axundu Hacı Şahin Həsənli və QMİ-nin əməkdaşı Həmid Bağırov müşayiət ediblər. Nümayəndə heyətinin tərkibindən məhz E.Mustafaoğlunun seçilməsi təsadüfi olmayıb. E.Mustafaoğlu məhkəməsində açıqlayıb ki, həbsindən əvvəl dostlarından biri SEPAH rəsmisinin onunla görüşmək istədiyini deyib. O isə bu haqda MTN-ə məlumat verib. Bundan sonra ona qarşı ciddi təzyiqlər başlayıb. Ehtimal olunur ki, E.Mustafaoğlunun bu cür davranışı MTN-in sabiq rəhbərliyinin cızdığı planı pozub. Ola bilər ki, SEPAH rəsmisinin onunla görüşmək istəməsi məsələsi MTN tərəfindən quraşdırılmış iş olub. Yəni bu qara planı cızmaqla, öz agentlərindən birini SEPAH rəsmisi qiyafəsinə salaraq, E.Mustafaoğlu ilə görüşdürmək istəyən Eldar Mahmudov QMİ-yə qarşı kompromat toplamaq istəyib. Lakin E.Mustafaoğlu sayıq davranaraq, önləyici addım kimi, dərhal MTN-ə məlumat verib. Bundan qeyzlənən E.Mahmudov isə onu digər iddia ilə tutub.

**Digər bir maraqlı məqam isə E.Mustafaoğlunun həbsi və qonşu dövlətin xeyrinə casusluqda ittiham olunması iki dövlət arasında münasibətlərdə istiləşmə müşahidə olunan dövrə təsadüf edib.** E.Mustafaoğlunun həbsinin bu məqamla əlaqəli olacağı ehtimalları var. Mahmudovun dəstəsi onu qonşu dövlətin casusu kimi həbs etməklə münasibətlərin yaxşılaşmasının qarşısının alınmasına xidmət edə bilərdi. Bundan başqa, "mahmudovçu"lar E.Mustafaoğlunu həbs etməklə özlərinin şəxsi maraqlarından çıxış etmələri də istisna deyil. İddia olunur ki, E.Mustafaoğlunu həbs etməklə şeyxi də digər imkanlı vəzifə daşıyıcıları kimi aylıq xərac ödəməyə məcbur etmək istəyiblər. Hətta belə məlumatlar da var ki, Elşən Mustafaoğlunun həbsi ərəfəsində "Bibiheybət" məscidində nə qədər nəzir pulu yığıldığının müəyyən olunması üçün Eldar Mahmudov məscidə MTN-dən nümayəndə göndərib. Sonradan bu prosesin şeyxin xərac ödəməsinə yol açıb-açmaması haqda dəqiq bilgilər yoxdur.

**Sabiq MTN zabiti Sülhəddin Əkbər** bu ehtimalların mümkünlüyünü istisna etmir. Deyir ki, Eldar Mahmudovun rəhbərlik etdiyi qurum təmsilçiləri o qədər qanunsuzluqla ediblər ki, hər gün bir yenisi üzə çıxır: "Fəaliyyətlərinə diqqət etsəniz görərsiz ki, çoxlu sayda belə qanunsuzluqlar olub. Əslində cinayət tərkibli qanunsuzluqlara yol veriblər. Bu baxımdan ölkə ictimaiyyəti, Azərbaycan siyasi hakimiyyəti də bu məsələyə ciddi diqqət ayırmalıdır. Hər hansı bir şəxsi xarici xüsusi xidmət orqanı ilə əlaqədə suçlamaq üçün əldə çox ciddi, inkar edilməz dəlil-sübutlar olmalı, ortaya qoyulmalıdır. Casusluq ən çətin sübut olunan cinayətlərdən biridir və Eldar Mahmudovun dövründə baş verən qanunsuzluqları nəzərə alanda bu məsələ çox ciddi şübhələr yaradır. Azərbaycanın məhkəmə sistemi bu işə baxarkən keçmiş Milli Təhlükəsizlik Nazirliyinin fəaliyyətini nəzərə almalıdır".

**S.Əkbər deyir ki, Elşən Mustafaoğlu ilə tanışlığı olub və MTN-in ona təzyiqləri haqda əvvəldən məlumatlı olub**: "İllər öncə Elşən Mustafaoğlu mənə müraciət edərək ona MTN tərəfindən təzyiqlər olunduğunu bildirmişdi, məsləhət istəmişdi".

**S.Əkbər deyir ki, E.Mustafaoğluna təzyiqlər həmin dövrdə MTN-lə əməkdaşlığa cəlb edilməsi prosesinin tərkib hissəsi olub. Sabiq MTN zabiti belə bir şəkildə əməkdaşlığa cəlbetmənin yolverilməz, biabırçı olduğunu da diqqətə çatdırdı:** "İnsanları zorla, şantaj etməklə MTN-lə əməkdaşlığa cəlb etmək nə qədər effektsiz olduğu ortadadır. Deməli şəxsi lazimi səviyyədə öyrənməyiblər. Öyrənmədikləri halda ona təklif ediblər. Əslində isə əməkdaşlığa cəlbetmə ciddi və ağır bir prosesdir. Şəxs hərtərəfli öyrənildikdən, operativ rəhbərliklə razılaşdırıldıqdan sonra əgər şərtlər uyğundursa, şəxsi əməkdaşlığa cəlb etmək təşəbbüsü göstərilməlidir. Yəni təklifə qədər bütün məsələlər aydınlaşdırılmalıdır - əməkdaşlığa cəlb ediləcək şəxs təklifi qəbul etmirsə, deməli burada qeyri-peşəkarlıq var. Və ya əməkdaşlığa hazırlıq işi başa çatdırılmayıb. Ola bilər ki, bütün bu işlər görülsün, amma şəxs əməkdaşlıqdan imtina etsin. Bu həmin şəxsi, Azərbaycan vətəndaşını incitmək MTN üçün yolverilməz bir haldır".

**S.Əkbər Qafqaz Müsəlmanları İdarəsinin öz əməkdaşları E.Mustafaoğlunun müdafiəsinə yönəlik addımlarının ortada olmamasını MTN-nin işinə qarışmaq istəyinin yoxluğu ilə izah edir:** "Sovet dövründə də bütün dini idarələr xüsusi xidmət orqanları ilə sıx əməkdaşlıq şəraitində işləyirdilər. Hər hansı bir şəxs xarici xüsusi xidmət orqanı ilə əməkdaşlıqda ittiham ediləndə təbii ki, digərləri də bu həssas məsələdən kənar durmağa çalışırlar. MTN-lə problem yaşamaq istəmirlər. Çünki bu halda öz fəaliyyətləri MTN-nin diqqət mərkəzinə gəlir, daha yaxından izlənməyə yol açır. Belə idarələrin fəaliyyətində çoxlu pozuntular olur. Ona görə də çalışırlar ki, hüquq mühafizə orqanları ilə problem yaşamasınlar".

**Qeyd edək ki, Elşən Mustafa oğlu Mustafayev (Elşən Mustafaoğlu) 8 noyabr 1974-cü ildə Bakı şəhərində anadan olub. İbtidai təhsilini 1981-1984-cü illərdə Bakı şəhər 6 saylı məktəbdə alıb. Daha sonra 150 saylı məktəbdə təhsilini davam etdirib və 1991-ci ildə burada orta təhsilini başa vurub. 1991-1993-cü illərdə Futurologiya İnstitutunda Şərqşünaslıq ixtisası üzrə təhsil alıb. 1993-1998-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə İran Beynəlxalq Universitetinin Humanitar elmlər fakültəsində "İlahiyyat pedaqogikası və İslam maarifi" ixtisası üzrə ali təhsil alıb. 1998-2001-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun aspiranturasında fəlsəfə tarixi ixtisası üzrə təhsilini davam etdirib. 10 fevral 2007-ci il tarixində Bakı Dövlət Universitetində "fəlsəfə tarixi" ixtisası üzrə namizədlik dissertasiyası müdafiə edib və fəlsəfə elmləri namizədi (hazırda fəlsəfə doktoru) alimlik dərəcəsi alıb.**

❑ E.HÜSEYNOV

# İlqar Məmmədovun məhkəməsindən xəbər yoxdur

## REAL sədrinin işinə baxacaq hakimin adı məlum olub; amnistiyaya düşən Fərəc Kərimlinin nə zaman azadlığa çıxacağı dəqiqləşməyib



İlqar Məmmədov

**REAL hərəkatının sədri İlqar Məmmədovun Ali Məhkəməsindən hələ xəbər yoxdur. Vicdan məhbusunun kassasiya şikayətinin üzərindən artıq 20 gündən çox vaxt keçib. Yalnız hakimin kimliyi məlum olub. Prosesə Əli Seyfəliyev sədrlik edəcək.**

REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova məhkəmənin zamanını gözlədiklərini bildirdi: "İlqarın vəziyyəti yaxşıdır. Əvvəlkindən heç bir yenilik yoxdur. Məhkəmənin zamanını gözləyirik".

**İ.Məmmədovun vəkili Fuad Ağayev** məhkəmənin nə zaman gözlənildiyi barədə danışmağın çətin olduğunu bildirdi: "Məhkəmə iclasının təyin olunması barədə hələ ki məlumat verilməyib. Azərbaycan məhkəmələri ilə bağlı heç vaxt proqnoz vermirəm. Ona görə sadəcə vaxtı gözləyirik. Gələn həftə İlqar Məmmədovla görüşəcəm".

Hazırda icra prosesi həyata keçirilən amnistiya aktına düşən Müsavat başqanının müavini Fərəc Kərimlinin nə vaxt azadlığa buraxılacağı məlum deyil. Saxlanıldığı 14 saylı cəzaçəkmə müəssisəsində amnistiyanın icrası davam etsə də, başqan müavini hələ ki həbsdədir.



Fərəc Kərimli

**F.Kərimlinin atası Raqif Kərimli** şənbə günü oğlu ilə görüşdüklərini bildirdi: "Özünün vəziyyəti yaxşıdır. Nə zaman azad ediləcəyi barədə bir söz demirlər. Sadəcə, rəisin Fərəcə amnistiyaya düşməsi ilə bağlı verdiyi xəbərdən savayı əlimizdə heçnə yoxdur. Nə vaxt qərar verilsə, yəqin ki, onda da azad olunar. Cəzaçəkmə müəssisəsində amnistiya prosesi davam edir. Saxlanıldığı müəssisədə vəziyyət bir az ağırdır. Toz-dumanın içərisində məhbus həyatı yaşayır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016



# Ukrayna prezidentindən Bakıda mühüm bəyanatlar

## Azərbaycan prezidenti İlham Əliyevlə görüşən Pyotr Poroşenko iki ölkə arasında əməkdaşlıqla bağlı nikbin fikirlər söylədi

**İyulun 14-də Azərbaycana rəsmi səfər edən Ukrayna prezidenti Pyotr Poroşenko dövlət başçısı İlham Əliyevlə görüşüb. Görüşdə Ukrayna prezidenti Pyotr Poroşenkonun Azərbaycana ilk rəsmi səfərinin önəmi vurğulanıb. Qeyd olunub ki, Azərbaycan-Ukrayna əlaqələrinin böyük tarixi var və xalqlarımız arasında daim dostluq münasibətləri hökm sürüb. İkitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə perspektivləri müzakirə olunub.**

Prezidentlərin görüşündən sonra Ukrayna və Azərbaycan Prezidentləri Şurasının 5-ci iclası keçirilib. Azərbaycan və Ukrayna Prezidentləri Şurasının 5-ci iclasının nəticəsi olaraq, bir sıra ikitərəfli sənədlər imzalanıb. Ölkə başçılarının iştirakı ilə iki ölkənin gömrük orqanları arasında hava nəqliyyatı ilə yük daşınması zamanı gömrük pozuntularına qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında sənəd və iki ölkənin Mədəniyyət nazirlikləri arasında 2016-2020-ci illər üçün mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq proqramı imzalanıb.

Sonra prezidentlər mətbuat konfransı keçiriblər. Prezidentlərin öz doğma dillərində danışması da diqqət çəkib.

Azərbaycanın uğurlu iqtisadi inkişafını qeyd edən P.Poroşenko Azərbaycan-Ukrayna əlaqələrinin genişləndirilməsi üçün potensialın olduğunu qeyd edib. Ukraynalı lider bu baxımdan Azərbaycanın 10 ədəd "AN-178" təyyarəsi almasını xüsusi qeyd edərək bu təyyarələrin Azərbaycanda tikilməsinin mümkünlüyünü diqqətə çatdırıb. P.Poroşenko Ukraynanın azərbaycanlı investorların ölkəsinin yanacaq-energetika bazarına çıxışına hər cür yardım göstərəcəyini bildirib.

**Pyotr Poroşenko bəyan edib ki, Ukrayna Dağlıq Qarabağ problemi ilə bağlı mövcud status-kvonun saxlanılmasını qəti şəkildə qəbul etmir. O bildirib ki, Ukrayna Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir:** "Azərbaycanın Ukraynanın ərazi bütövlüyü ilə bağlı qəti mövqeyini sevinclə qarşılayır və alqışlayırıq. Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü olub və Ukraynanı fəal dəstəkləyib. İndi biz bildiririk ki, Azərbaycan da bizim 2016-2017-ci illərdəki üzvlüyümüz dövründə Ukraynanın dəstəyinə arxalana bilər".

Azərbaycan prezidenti İlham Əliyev ölkələr arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi baxımından Ukrayna prezidentinin Bakıya səfərinin önəmini qeyd edib.



"Ukrayna və Azərbaycan neft nəql olunması üçün Odessa-Brodi layihəsinin reallaşdırılmasında maraqlıdır". APA-nın verdiyi xəbərə görə, bu sözləri Azərbaycan prezidenti deyib. "Biz ciddi şəkildə Odessa-Brodi layihəsinin reallaşdırılmasını müzakirə edik, çünki Azərbaycan Avropa bazarına böyük həcmdə neft ixrac edir", - deyə prezidnet İ.Əliyev söyləyib. Dövlət başçısı iki ölkənin hərbi-texniki əməkdaşlığı inkişaf etdirmək niyyətində olduğunu açıqlayıb. Prezident qeyd edib ki, birgə sənaye komplekslərinin yaradılması çox vacibdir: "Həm ağır sənaye, hə də hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində yaxşı imkanlar var".

Bakı və Kiyevin münasibətlərindəki bu yaxınlığın Kreml tərəfindən anlayışla qarşılanmayacağı barədə ehtimallar da var. Hesab olunur ki, Rusiya hakimiyyəti hazırda özünün ən birinci düşməni olan Ukrayna prezidentinin Bakıda yüksək səviyyədə qarşılanması və əlaqələr qurulmasına kəskin reaksiya verə bilər. Ancaq təhlilçilər fərqli düşünür.

**Siyasi şərhçi Elxan Mehdiyev** düşünmür ki, Rusiya Poroşenkonun Bakı səfərini qıcıqla qarşılaya bilər: "Çünki Rusiyanın özünün Azərbaycanla münasibətləri dinamik inkişaf edir və artan istiqamətdə gedir. Bəlkə də bu münasibətlər ən yüksək nöqtəsindədir. Bu mənada düşünmürəm ki, onun Bakı səfərinə Rusiyadan sərt yanaşma olacaq. Əsas məsələ odur ki, Rusiya ilə Azərbaycanın münasibətləri artan dinamika ilə inkişaf edir. Əgər Ukrayna-Azərbaycan münasibətləri Rusiyaya qarşı addımları özündə ehtiva edərdisə, bu halda nə isə gözləmək olardı. Amma düşünmürəm ki, Azərbaycan Rusiyaya qarşı bir addım atsın".

**Politoloq Şahin Cəfərli** də "Yeni Müsavat"a bildirdi ki, Ukrayna prezidentinin Azərbaycana səfərinin Rusiyada ciddi qıcıq yaradacağını düşünmür: "Azərbaycan və Ukrayna müstəqil dövlətlər kimi öz siyasətlərini özləri müəyyən edir. Hesab edirəm ki, Rusiya ciddi dövlət kimi bu əməkdaşlığa müdaxilə etmə haqqı olmadığını anlayır. Digər tərəfdən, Azərbaycan-Ukrayna münasibətlərində Rusiyanın maraqlarına zidd müəyyən məqamlar və istiqamətlər olsa da, bu əməkdaşlıq Rusiyaya qarşı yönəlməyib. Ən azı, Azərbaycan tərəfinin bu məsələdə çox ehtiyatlı olduğunu bilirik".

**Ş.Cəfərli Ukrayna və Azərbaycan arasında siyasi əlaqələrdən başqa, iqtisadiyyatın müxtəlif istiqamətlərini, enerji, nəqliyyat, infrastruktur, kənd təsərrüfatını əhatə edən əhatəli əməkdaşlığın mövcud olduğunu vurğuladı**: "Bundan başqa, əməkdaşlıqda hərbi-texniki sahəni xüsusi qeyd etməliyik. Sirr deyil ki, Qarabağ müharibəsinin ilk vaxtlarından Ukrayna Azərbaycan üçün ən etibarlı silah bazarı olub. Ehtiyac duyduqda, silah və hərbi texnika üçün hər zaman Ukraynaya üz tutmuşuq. Hazırda bu sahədə əməkdaşlıq davam edir və təsadüfi deyil ki, ölkə prezidentləri Bakıda apardıqları danışıqlarda bu əməkdaşlığın inkişaf etdirilməsi barədə razılığa gəliblər. Bu, həm də Azərbaycanın çətin durumda olan Ukraynaya mühüm dəstəyi kimi qiymətləndirilə bilər. İki ölkə nəqliyyat dəhlizlərində də birgə iştirak edir. Ukrayna bu il rəsmi Bakının da razılığı ilə Transxəzər beynəlxalq nəqliyyat dəhlizinə qoşulub. Çini Türkiyə vasitəsilə Avropa ilə birləşdirəcək bu dəhliz Azərbaycan, Gürcüstan, Qazaxıstan və Çinin iştirak etdiyi, Rusiyadan yan keçən nəqliyyat dəhlizidir. İlin əvvəlində Bakıda Azərbaycan, Ukrayna, Gürcüstan və Qazaxıstan arasında bu marşrutla yük daşımaları üçün rəqabətədavamlı və güzəştli tariflərin müəyyənləşdirilməsi barədə protokol imzalanıb".

Yeri gəlmişkən, Ukraynada səfir təyinatı da xeyli vaxtdır gecikir. Ötən il Eynulla Mədətli Azərbaycan Ukraynada fövqəladə və səlahiyyətli səfiri və Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılandan sonra onun postu boş qalıb. Bir müddət öncə Azərbaycanın Sloveniyadakı müvəqqəti işlər vəkili Azər Xudiyevin Ukraynaya səfir təyin edildiyi xəbəri mətbuatda yayılsa da, rəsmi təsdiqini tapmadı.

**Son zamanlar azərbaycanlılar üçün kifayət qədər problemlərin hökm sürdüyü Ukraynaya səfir təyinatının gecikməsi ilə bağlı müxtəlif fikirlər var. Amma Ş.Cəfərli hesab edir ki, bu məsələdə siyasi səbəblər axtarmağa dəyməz:** "Ola bilsin, prosedurlar ləng irəliləyir və ya bu vəzifə üçün uyğun bir diplomat tapılmır".

❑ Elşad PAŞASOY

# Tiflis konfransı bitdi, müzakirələr bitmədi...

## Müşfiq Ələsgərli: "Məqsədli şəkildə Azərbaycanı hədəfə çıxardılar"

**Bu günlərdə Tiflisdə ATƏT-in Cənubi Qafqazda media məsələlərinə həsr olunmuş illik konfransının ilk sessiyasını keçirib. Tədbirdə ciddi müzakirələrin və fikir ayrılqlarının olması ilə bağlı məlumatlar yayılıb.**



Müşfiq Ələsgərli

Artıq bununla bağlı "Yeni Müsavat"da da ilkin yazı dərc edilib. **Mətbuat Şurası İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli** isə bizə açıqlamasında konfransdakı bəzi detallara toxundu. Müsahibimiz öncə dedi ki, bu, ənənəvi, söz azadlığına həsr olunmuş konfrans olub. Onun sözlərinə görə, konfransın ilk günündən müxtəliflik hiss olunub: "Konfransın adını Cənubi Qafqazda media məsələləri qoysalar da, müzakirə Azərbaycan üzərində fokuslaşdırıldı. Doğrudur, biz istənilən müzakirəyə açığıq. Amma bu, ayrı-seçkilik idi. İlk çıxışı Gürcüstanın Xarici İşlər Nazirliyinin nümayəndəsi etdi. Ondan dərhal sonra Gürcüstandan Rustavi2 kanalının əməkdaşı çıxış etdi. O dedi ki, "nazirlik nümayəndəsinin çıxışına etiraz edirlər. Çünki Gürcüstan mediasında vəziyyət onların dediyi kimi deyil. Gürcüstana çox önəm verilir, amma medianın kifayət qədər problemləri var. Müəyyən siyasi problemləri də var". Məsələ ondadır ki, onun çıxışına konfransın aparıcıları tərəfindən əhəmiyyət verilmədi. Yenə də müzakirələr gəldi Azərbaycanın üzərinə. Biz demirik ki, problem yoxdur. Amma burda qəribəlik yaranır. Niyə məqsədli şəkildə Azərbaycan hədəfə çıxarılır?"

**Müsahibimiz xatırlatdı ki, eyni situasiya Ermənistanla bağlı olub. Onun sözlərinə görə, sözügedən tədbirdə Ermənistan tərəfinin rəsmi məruzəçisi çıxış edəndən sonra jurnalistlər onların mediasında da problem olduğunu deyiblər:** "Bununla belə daha çox müzakirə Azərbaycana həsr olundu. Prezident Administrasiyasının nümayəndəsi, ictimai-siyasi şöbənin baş məsləhətçisi Kamran Həsənli dedi ki, "bu konfransda müzakirələrin 70 faizi Azərbaycana həsr olunub, amma müzakirələr paralel şəkildə getməlidir. Kimsə deyə bilər ki, Azərbaycanda problemlər çoxdur. Amma bu, konfransda Azərbaycanı hədəfə çevirməməlidir"".

**M.Ələsgərli dedi ki, konfransda səsləndirilən ikinci yeni bir tezis isə Azərbaycanda qadın jurnalistlərin məhz qadın olduqları üçün basqıya məruz qalmaları ilə bağlı olub. Müsahibimizin sözlərinə görə, bunu konfransa onlayn şəkildə qoşulan müstəqil jurnalist Xədicə İsmayılova qaldırıb, bəziləri ona dəstək verib və bu da konfransı idarə edən şəxslər tərəfindən qabardıldı**: "Hər kəs etiraf edər ki, Azərbaycanda jurnalistlərə məxsusi qadın olduğuna görə basqı yoxdur. Buna etirazımızı bildirdik. Etirazlarımız uğurlu qarşılandı. Bir çox məsələlərin gündəmdən çıxarılmasına nail olduq. Konfrans Azərbaycanın ziyanına başlamış olsa da, sonu fərqli şəkildə, bizim xeyrimizə bitdi".

❑ Sevinc TELMANQIZI

**Vəkillər Kollegiyasının(VK) sədri Azər Tağıyev gizli şəkildə konfransa hazırlaşır. Redaksiyamıza daxil olan məlumatdan aydın olur ki, A.Tağıyev 2004-cü ildə əyləşdiyi VK sədri kreslosunu qorumaq üçün çalışır. Məlumata görə, A.Tağıyevin tapşırığına əsasən vəkillər kontorlarının rəhbərlərinə tapşırılıb ki, iyulun 15-dən başlayaraq, yaxın vaxtlarda keçiriləcək konfransa nümayəndələr seçsinlər.**

# Vəkillər Kollegiyasının sədri "ömürlük" olur

## Azər Tağıyevin qeyri-legitim konfrans hazırlıqlarına başladığı iddia edilir

A.Tağıyev konfransa nümayəndətək göndəriləcək vəkillərin adlarını da əvvəlcədən müəyyən edərək kontorlarda keçiriləcək yığıncaqlarda seçilmələrini da tapşırıb. Əgər A.Tağıyevin adlarını təqdim etdiyi vəkillər "seçilərərk" konfransa nümayəndə kimi göndərilsələr, o, rekord səs çoxluğu ilə yenidən VK sədri olacaq. Özü də ömürlük.

Bunun gerçəkləşəcəyini söyləmək üçün real əsaslar var. A.Tağıyevin siyahısı üzrə konfransa 100-ə yaxın vəkil göndərilməlidir. Əvvəlcədən "seçilmiş" vəkillərin adı sədr kimi büllütenlərə salınmış A.Tağıyevə "səs verəcək"ləri də şübhəsizdir. VK sədrinin seçki planı baş tutsa, o, 100 faizlik səslə sədr olmasını indidən təmin edib.

Amma mənbəmiz deyib ki, A.Tağıyevin gizli şəkildə keçirmək istədiyi konfrans istənilən halda legetim olmayacaq. Konfransın keçirilməsi üçün kollegiyanın 1000-dən artıq üzvü olmalıdır. Bu gün Azərbaycanda vəkillərin sayı 900-ü aşmır. Bu halda onun ömürlük sədrliyi də qeyr-legitim ola bilər.

A.Tağıyev bu gün hazırlıq gördüyü seçkilərə 2009-cu ildən hazırlaşır. Həmin ilin oktyabrında A.Tağıyev 2004-cü ildən sədrlik etdiyi VK-nın üzvlərinin böyük əksəriyyətindən xəbərsiz prezidentə və Milli Məclisə məktub yollamışdı. O, özünün ömürlük seçilməsini yasaqlayan "Vəkillər və vəkillik fəaliyyəti haqda" Qanuna dəyişikliklər edilməsini və vəkillərin fəaliyyətinə xitam verilməsi səlahiyyətlərinin VK sədarətinə - yəni özünə verilməsini istəmişdi.

28 dekabr 1999-cu ildə qəbul olunan "Vəkillər və vəkillik fəaliyyəti haqda" Qanunun 11-ci bəndinə əsasən eyni şəxs 2 dəfədən artıq VK sədri ola, seçilə bilməzdi. A.Tağıyevin təklif etdiyi dəyişikliklər o dövrdə parlamentdən keçdi və bu yasaq dolayısı ilə aradan qaldırıldı.


Azər Tağıyev

Qanunda göstərildi ki, VK-nın ümumi yığıncağı eyni şəxsi ömürlük olaraq VK sədri seçə bilməz. Amma konfransın belə bir səlahiyyəti var. Dolayısı ilə A.Tağıyevə "yaşıl işıq" hələ 2009-cu ildə yandırılıb. Amma yenilənmiş qanunda əksini tapan bir məqam yenə də A.Tağıyevin planlarını ciddi şəkildə pozur. Belə ki, hazırda qüvvədə olan qanuna görə vəkillərin konfransının keçirilməsi üçün VK-nın 1000-dən artıq üzvü olmalıdır.

A.Tağıyev illərlə VK üzvlərini sayının 1000-ə çatmasına qarşıdır. Çünki bu halda qanun digər bir bəndi də işə düşür - 2-ci Vəkillər Kollegiyasının yaradılmasına icazə verilir. A.Tağıyev isə ikinci bir VK-nı, onun sədrini görmək istəmir. Odur ki, A.Tağıyev vəkiliyə qəbul zamanı test imtahanından keçən namizədlərin bir çoxunun çıxdaş olunmasında şəxsən iştirak edir. Məntiqlə VK sədri hüquqşünasların vəkilə çevrilməsi üçün addım atmalı olduğu halda, A.Tağıyev bunun tam əksini edir.

Hələ 2009-cu ildə A.Tağıyevin gizli məktubunda yer alan dəyişiklikləri qocaman vəkil, hazırda haqq dünyasında olan, o dövrdə VK-nın İntizam Komissiyasının sədri olan Həzi Məmmədov kəskin tənqid etmişdi. Demişdi ki, Tağıyevin istədiyi dəyişikliklər özünün ömürlük sədrliyinə və öz sözünü deyə bilən vəkillərin fəaliyyətinə xitam verilməsinə yol açacaq.

Qeyd edək ki, A.Tağıyevin təklif etdiyi dəyişikliklərdən sonra Azərbaycanın tanınmış bir çox vəkilləri Vəkillər Kollegiyası sıralarından çıxarılmaqla cinayət işlərinə çıxışları əngələnib. Həmin dəyişikliklərə qədər vəkilin fəaliyyətinə məhkəmələrə müraciət olunmaqla xitam verilə bilərdi. Bu isə uzun prosedur idi. H.Məmmədov Azər Tağıyevə belə bir səlahiyyətin verilməsini qanuna zidd adlandırmış, Azər Tağıyevi istefaya çağırmışdı. H.Məmmədov VK-nın İntizam Komissiyasının sədri kimi A.Tağıyevin qanunsuz əməlinə etiraz etmişdi. Bu gün isə VK-da baş verənlərə etiraz edənlər yoxdur.

**Mövzuya qayıdacağıq.**

**❑ E.HÜSEYNOV**

# YAP rəhbərliyinin "dialoqa ehtiyac yoxdur" iddiasına müxalifətdən cavab


Aydın Mirzəzadə

## İqbal Ağazadə: "Ya xəbəri yoxdur, ya da..."

**Yeni Azərbaycan Partiyasının *(YAP)* Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə azvision.az-a açıqlamasında hazırkı şəraitdə iqtidar-müxalifət dialoquna ehtiyacın duyulmadığını bildirib. O deyib ki, ölkədə böhran vəziyyəti yoxdur ki, iqtidarla müxalifət qarşı-qarşıya oturub nəyisə müzakirə etsin.**

**YAP funksioneri dialoq sözünün geniş məfhum olduğunu qeyd edib:** "Bu ilk növbədə mühitdir. Bu, elə bir sərbəst mühitdir ki, hər bir tərəf öz fikrini açıq şəkildə ifadə edə bilir, mövqeyini qanunun imkan verdiyi çərçivədə müdafiə edir, bloklar yaradır, gələcək planlarını açıqlayır. Bu mühitdə mətbuat vasitəsilə, hansısa tədbirlərdə tərəflər həm polemikaya girir, həm qarşısındakının mövqeyini öyrənir, həm də hansısa məsələdə öz mövqeyini daha da dəqiqləşdirirlər. Dialoq ilk növbədə budur. Dəyirmi masa arxasında görüş isə dialoqun formalarından biridir. Azərbaycanda oturuşmuş, stabil bir dövlət var. Azərbaycanda proseslər konstitusiya çərçivəsində gedir. Hər bir vətəndaşın və siyasi qüvvənin hüquqları qorunur. Demokratik dövlət olduğumuza görə, siyasi rəqabət var. Müxalifətlə iqtidar hər biri öz mövqeyinə uyğun tərəfdarlar toplayır, öz siyasətini aparır".

**Deputat onu da bildirib ki, müxalifət tərəfdən dialoqla bağlı heç bir müraciət edilməyib:** "Bununla belə müxalifət tərəfdən hər hansı bir məsələnin müzakirəsi ilə bağlı görüş istənilərsə, təklif olunarsa, iqtidar onu dinləməyə, təklif olunan məsələni müzakirə etməyə hazırdır. Yəni, iqtidarın qapısı istənilən qüvvə üçün açıqdır, istənilən məsələni müzakirə etmək olar. Müzakirələr heç vaxt konstitusiyanı və qəbul edilmiş qanunları əvəz etmək hüququna malik olmamalıdır".


İqbal Ağazadə

Milli Məclis üzvünün dedikləri müxalif camiə daxilində ciddi etirazla qarşılanıb. Demokratik düşərgənin təmsilçiləri hazırkı şəraitdə belə dialoqlara ehtiyac duyulduğunu bildirirlər.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** "Yeni Müsavat"a açıqlamasında hakimiyyətin dialoqa ehtiyacın olmaması ilə bağlı mövqeyinin doğru olmadığını bildirdi: "Müxalifət iqtidarla hansısa bir məsələni müzakirə etmək istəyirsə, bu xoşməramdan irəli gəlir. Hakimiyyətin isə "heç bir şeyə ehtiyac yoxdur" deməsi, əslində doğru yanaşma deyil. Çünki ən azından Dağlıq Qarabağ kimi problemimiz var ki, hər gün basqılar olur, aprel ayından bu yana istər Qərb, istərsə də, Rusiya dairələri ilə ciddi danışıqlar gedir. Əgər Aydın Mirzəzadə hesab edirsə ki, bu iqtidarın problemidir, o yanılır. Bu bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin problemidir. Onun bütün təbəqələri bu prosesdə iştirak etməlidirlər. Digər tərəfdən, ölkədə iqtisadi vəziyyət ürəkaçan deyil. Manatın son devalvasiyasından sonra həm qiymət artımı, həm də iqtisadi strukturlarda tənəzzüllər göz önündədir. Bunları müzakirə etmək əvəzinə problemlərə göz yummaq, böhranı görmürəm demək çıxış yolu deyil. Müxalifətin məqsədi xoşməramdan irəli gəlir və bu doğru qiymətləndirilməlidir. Bu tipli ölkələrdə doğru-dürüst dəyərləndirmə olmayanda, sonda siyasi institutlar dövriyyədən çıxır və xalqın problemləri qalmaqda davam edir. Yaxın Şərq və digər yerlərdə bunun nümunələrini görmüşük. Biz deyirik ki, problemlər siyasi institutlar vasitəsilə həll olunsun. Hazırda bu problem onlarındır".

**Partiya sədri A.Mirzəzadənin müxalifət tərəfdən dialoqla bağlı təklifin gəlmədiyi barədə fikirlərinə sərt reaksiya verdi:** "Aydın Mirzəzadənin ya xəbəri yoxdur, ya da özünü bu cür aparır. Antiböhran proqramını iqtidarı təqdim etmişik. Bununla bağlı şəxsən mənə rəsmi cavab verilib. Söhbət Ümid Partiyasından gedir. Səlahiyyətli qurumların hamısı rəsmi cavab veriblər. Əminliklə deyə bilərəm ki, bizim antiböhran proqramımızdan istifadə olunub. Qoyduğumuz bəndlərdən yarımçıq da, alayarımçıq da olsa, istifadə olunub. Daha dərindən istifadə etmək üçün daha böyük addımlara ehtiyac var ki, hakimiyyət bu addımları atmır. Amma "müxalifətin təklifi olmayıb" kimi fikirlər səsləndirmək doğru deyil. Müxalifət daxilində iqtisadi böhranla bağlı uzun bir proses getdi. Bizim təkliflər üzərində xeyli iqtisadi proqramlar işlənildi. O cümlədən, sərəncamlar verildi. Struktur islahatları, gömrük sadələşdirilməsi kimi hallar oldu. Tikinti sektorunun inkişafına diqqət ayrıldı ki, biz bu sahənin ölkəmiz üçün nə qədər vacib olduğunu əvvəlcədən demişdik. Siyasi məhbusların həbsdə olmasının böhrandan çıxmağa gedən yola olan maneələrini göstərmişdik. Bununla bağlı tam olmasa da, iqtidar bəzi addımlar atdı".

**❑ Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016

# Şəffaflıq Koalisiyasında qarşılıqlı ittihamlar

**İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası parçalanma təhlükəsi qarşısında qalıb. İyunun sonunda Koalisiyanın növbəti Şura iclası keçiriləndən sonra durum daha da gərginləşib. 157-ci iclasda Qubad İbadoğlu yenidən Koalisiyanın əlaqələndiricisi seçiləndən sonra Sabit Bağırov istefa verib. Koalisiya Şurasının Əlaqələndiricisinin seçkisində Qubad İbadoğlunun, Məmmədhəsən Həsənov və Sabit Bağırovun namizədliyini irəli sürülsə də, Qubad İbadoğlu Koalisiya Şurası üzvlərinin yarıdan çoxunun səsini qazanaraq Koalisiya Şurasının Əlaqələndiricisi seçilib.**

Bundan sonra isə Mədən Sənayesində Şəffaflıq Koalisiyasının Monitorinq Qrupu Koalisiya Şurasındakı çoxluğa qarşı çıxıb. Hazırda yeni yığıncağın çağırılması ilə bağlı müzakirələrin getdiyi bildirilir. Hər iki tərəf bir-birini ittiham edir. Bir müddət əvvəl hakimiyyətin Koalisiyanı nəzarətdə saxlamaq üçün üzvlərə 400 min manat pul verməsi məsələsi ilə gündəmə gələn qurumda durumun ciddiliyi göz önündədir.

**Qubad İbadoğlu məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, seçilmiş Şura üzvlərinin bir qismi iclaslara qatılmır:** "Onlar yenidən ümumi yığıncağın çağırılması istiqamətində fəaliyyət göstərirlər. Əslində ümumi yığıncaq keçiriləndə, səsvermənin nəticələri elan olunanda heç kəs heç bir iradla çıxış etməyib. Bununla bağlı sonra da irad daxil olmayıb. Seçkinin ədalətli, demokratik olduğunu təsdiq ediblər. İndi hazırkı Şuranın tərkibi hesab edirəm ki, daha müstəqildir. Baxmayaraq ki, qarşı tərəf bunu siyasiləşdirmək istəyir. Şura əsasnaməyə uyğun olaraq, fəaliyyətini davam etdirir. Şuranın on bir üzvündən yarısından çoxunun iştirak etdiyi iclas yetərsaylı sayılır. Biz də sonuncu iclası altı nəfərlə keçirmişik. Məhsuldar müzakirə olub. Bir neçə də sənəd qəbul etmişik. Narahatlığımızı da ifadə etmişik ki, indiki halda Koalisiyanın bütövlüyünə, müstəqilliyinə olan təhlükələr Azərbaycanın oktyabrda gözlənən statusu ilə bağlı müzakirə zamanı problemlər yarada bilər. Ona görə hamını diqqətli, məsuliyyətli olmağa, Koalisiyanın bütövlüyünün qorunması istiqamətində fəaliyyət göstərməyə çağırmışıq. Bəzi qüvvələr Koalisiyanı parçalamaq istəyir. Bəri başdan deyim ki, əgər belə hal baş verərsə, bunun məsuliyyəti hakimiyyətin üzərinə düşəcək. Çünki hiss olunur ki, bu, mərkəzləşdirilmiş qaydada həyata keçirilən fəaliyyətdir, idarə olunur".



**Qubad İbadoğlu:** "Bəzi qüvvələr koalisiyanı parçalamaq istəyir"



**Əliməmməd Nuriyev:** "Mən iki il əvvəl Koalisiyaya koordinator seçiləndə, bir çoxları ölkədən qaçıb getmişdi"

**Narazılardan olan Əliməmməd Nuriyev isə qeyd edib ki, koalisiyada bir qrup şəxs işgüzar müzakirə mühitinin qarşısını alır:** "Qubad İbadoğlunu dəstəkləyən qrupdur. Buna etiraz olaraq Sabit Bağırov istefa verdi. Problemlə bağlı qərara alınmışdı ki, Monitorinq Qrupu vəziyyəti qiymətləndirsin və onun rəyi nəzərə alınsın, qəbul edilsin. Əvvəl razılaşdırdıq. Monitorinq Qrupu rəy verdi, rəy nəticəsində məlum oldu ki, Oqtay Gülalıyevin ictimailəşdirdiyi fikirlər, Koalisiya haqqında deyilənlər əsassızdır, böhtan, iftira xarakterlidir. Tələb olundu ki, bu fikirləri ortaya atan Oqtay Gülalıyevə xəbərdarlıq edilsin. Şəxs barəsində hüquq pozuntusu müəyyən edildikdə, o, ümumiyyətlə Koalisiyadan çıxarılmalıdır. Monitorinq Qrupu isə şayiələr, əsassız məlumatlar yaydığına görə, Oqtay Gülalıyevə xəbərdarlıq edilməsini istədi. 400 min məsələsinə də aydınlıq gətirildi ki, bu, yalan, iftiradır. Hər hansı şəxsin ələ alınması ilə bağlı fakt aşkarlanmayıb. Amma Monitorinq Qrupunun bu rəyini Şura, məlum çoxluq qəbul etməyib. Monitorinq Qrupunun rəyi qəbul edilməlidir. Bir neçə saatlıq müzakirələrdən sonra orada qalmağın bir mənası yox idi. Bunlar çalışdılar ki, Koalisiyanın bu problemi qalsın".

**Ə.Nuriyevin sözlərinə görə, Şurada qalmaqla bir çoxları siyasi maraqlarını təmin edirlər:** "Bundan bir siyasi platforma kimi istifadə edirlər. Sonradan da gördük ki, onlar siyasi bəyanatlarla fəaliyyəti davam etdirirlər. Onlar hesab edirlər ki, Beynəlxalq İdarə Heyəti onların arxasında duracaq. Həmçinin istəyirlər ki, gələcəkdə daxil olacaq qrantlarda üstünlük onların olsun. 2006-cı ildən 2015-ci ilə qədər Koalisiyaya 1,5 milyard dollar qrant daxil olub. Bu vəsait ayrı-ayrı şəxslərin mövqelərinin möhkəmlənməsinə gedib. Qohum-əqrəbanın Koalisiyaya cəlb edilməsinə gedib bu pul. Mən iki il əvvəl Koalisiyaya koordinator seçiləndə, bir çoxları ölkədən qaçıb getmişdi. Daha doğrusu, vəzifələrini, öhdəliklərini qoyub qaçdılar. Biz Koalisiyanı böhrandan çıxartdıq. Bu gün isə şantaja keçiblər. Hökumətə qarşı açıq şantaj gedir. Halbuki Koalisiyada problemləri onlar yaradıb. Bu problemlər Koalisiyadaxili problemlərdir. Bu problemlərin həlli ilə bağlı Sabit Bağırov tərəfindən Şuraya müraciət olundu, növbədənkənar yığıncağın keçirilməsi ilə bağlı imza toplanmasına çağırıldı. Artıq bu proses başlayıb. Növbədənkənar ümumi yığıncaq çağırılacaq. Bu böhranın aradan qaldırılmasına səs verəcəyik. Bizə mane olan altı nəfərlik qrupdur".

**Koalisiya Şurasının üzvü Akif Qurbanov** isə sosial şəbəkədə status yazaraq bildirib ki, ümumi yığıncağın yenidən keçirilməsinə hazırlıq işi başlayıb: "Çünki başqa cür də qəbuletmə praktikası yoxdur. Təəssüf ki, Azərbaycanımızda 1993-cü ildən bu yana nəyin bahasına olursa-olsun təhvil verməmək ənənəsi formalaşıb".

❑ **Röya RƏFİYEVA**

# "Daşkəsən Filizsaflaşdırma"nın özəlləşdirməsi-alıcı tapılacaqmı?

## Ekspertlər bildirirlər ki, proses şəffaf olmalıdır, özəlləşdirmə layihəsində iştirak etmək üçün isə investorların şərtləri olacaq

**Azərbaycanın polad istehsalı kompleksinə daxil olan "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyəti özəlləşdirməyə çıxarılıb. Dövlət başçısı İlham Əliyev iyulun 13-də bununla bağlı sərəncam imzalayıb. Sərəncam metallurgiya kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur.**

Sənədə əsasən, "Daşkəsən Filizsaflaşdırma" özəlləşdirməyə açıq elan edilərək, Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilib. Bundan sonra "Daşkəsən Filizsaflaşdırma"nın dövlətə məxsus səhmləri investisiya müsabiqəsi vasitəsilə satışa çıxarılacaq. Dövlət komitəsi investisiya müsabiqəsinin daha uyğun şərtlərlə həyata keçirilməsi üçün zəruri addımları atmalıdır. Səhmlərin özəlləşdirilməsində yerli investorlarla yanaşı xarici investorların da iştirakına icazə verilir.




Ekspertlər isə bildirirlər ki, özəlləşdirməyə xarici investorların cəlb edilməsi asan məsələ deyil. **Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, dövlətin əlində olan müəssisə olaraq "Daşkəsən Filizsaflaşdırma"nın özəlləşməsi prosesi həyata keçiriləcək, ancaq burada suallar meydana çıxır. "Həmin müəssisə ilə bağlı bir neçə sual meydana çıxır. Özəlləşdirmə şərtləri ilə bağlı bir çox suallar meydana çıxır. Çünki bu müəssisə son zamanlar kifayət qədər məhsul istehsal etmirdi, durma nöqtəsinə gəlmişdi. Avadanlıq vəziyyəti necədir, hansı səviyyədədir, nə qədər istehsal gücü var, bununla bağlı təəssüf ki, məlumatlar yoxdur. Hər hansı investor ilk olaraq ətraflı məlumat almaq istəyir. Həmin müəssisənin bu günü haqqında, eyni zamanda, gələcək perspektivləri haqqında məlumat istəyir. Bununla bağlı hökumət açıqlama verməlidir, açıq şəkildə məlumat yaymalıdır. Əgər hökumətin belə bir fikri varsa, ən azından, ictimaiyyətə açıq şəkildə, iş adamlarına, iş çevrələrinə açıq şəkildə ətraflı alıcı məlumatı təqdim etməlidir. Əsas hədəf xarici investorların cəlb olunmasıdırsa, xarici investorların bir çox şərtləri olacaq. Özəlləşdirmə layihəsində iştirak etmək üçün investorların şərtləri var. Buna görə də Azərbaycan hökuməti beynəlxalq təcrübəni öyrənməlidir və belə böyük tender layihələrinin necə həyata keçirilməsini, özəlləşdirmənin hansı qaydalar çərçivəsində olmasını, Azərbaycandan investorların hansı gözləntilərinin olduğunu, hökumətin hansı tələbləri yerinə yetirərkən investorları cəlb edə biləcəyi haqqında bir araşdırma aparılmalıdır. Hələ ki, 25 ilə yaxın müstəqil olmağımıza baxmayaraq, hələ də bununla bağlı ətraflı araşdırmalar aparılmayıb. İnvestorlar üçün bir yol xəritəsi hazırlanmayıb. İndi özəlləşdirmənin özü taktiki bir məsələdir. Hər hansı aktivlərdən dövlətin satışa çıxarılması və büdcənin yükünün azaldılması, özəlləşdirmə yolu ilə əlavə gəlirlərin gətirilməsi taktiki məsələdir. Sadəcə bu, beynəlxalq standartlara uyğun, investorların qəbul etdiyi və öyrəşdiyi oyun qaydalarına uyğun aparılmalıdır. Hələlik, sadəcə niyyət bəyan olunub. Bu, hansı formada aparılacaq, necə investorlar cəlb olunacaq, ətraflı məlumat yoxdur".

❑ **Röya RƏFİYEVA**



# Torpaqları daha çox icra başçıları zəbt edir

**Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci yarısının yekunları ilə bağlı keçirilən müşavirədə kənd təsərrüfatının inkişafından danışarkən minlərlə hektar sahələrin hasarlandığını və istifadəsiz qaldığını bildirərək, bu ərazilərin sahiblərinin yüksək vəzifəli məmurlar olduğunu söyləyib. Ölkə başçısı həmin oliqarxların konkret adlarının ona məlum olduğunu da qeyd edib. Bu fikirlərdən sonra bir həqiqət meydana çıxır ki, mərkəzi şəhərlərdə hektarlarla ərazilərin hasara alınması mümkünsüzdür. Bu qədər ərazinin boş olması da mümkün deyil. Ancaq bu rayonlarda ola bilər ki, bunun əksəriyyətin də çox güman sahibləri həmin rayonların başçılarıdır. Deməli, ölkə başçısı hektarlarla ərazilərdən danışarkən həmin "padşah"ları da nəzərdə tuta bilər.**

Politoloq Natiq Miri bildirdi ki, hakimiyyət tərəfdən bu cür xəbərdarlıqlar dəfələrlə olub: "İdarəetmədə köklü dəyişikliklər vacibdir. Arada icra başçılarının işdən çıxarılması, yaxud yerlərinin dəyişdirilməsi baş verir. Amma mahiyyətə ciddi təsiri yoxdur. Kadrların seçilməsinə ciddi diqqət ayrılmalıdır. Təəssüflər olsun ki, hakimiyyət bu idarəetmə formasından məmnun görünür".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016

# Milli təhlükəsizlik konsepsiyası, erməni və İŞİD təhdidi...

## Dünyanın super gücü olan Amerika Rusiyanın Ukraynaya müdaxiləsindən sonra öz milli təhlükəsizlik konsepsiyasını yenilədi, bəs Azərbaycan?

**Son günlərdə Azərbaycana İŞİD təhlükəsinin artması barədə xəbər vermişdik. Terror qruplaşmasının ölkəmizi hədəfə alması ilə bağlı türk mətbuatının dərc etdiyi yazı bir çox məsələləri gündəmə gətirib. Əsas müzakirələrə çevrilən məsələ Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının olması ilə bağlıdır. Hər kəs bunun vacibliyindən danışır. Milli təhlükəsizlik konsepsiyamız 2007-ci ilin 24 mayında təsdiq edilib. Maraqlanan hər kəs bunu bilir. Amma ötən ilin oktyabrında "MTN inqilabı"nın baş verməsi, qurumda ciddi dəyişikliklərin olması, son nəticədə isə Milli Təhlükəsizlik Nazirliyinin adının dəyişdirilərək Dövlət Təhlükəsizlik Xidmətinə çevrilməsi bu məsələni aktuallaşdırıb. Əslində qalsa milli təhlükəsizlik konsepsiyası üç ay öncədən daha çox müzakirə edilir. Aprel döyüşlərindən sonra ermənilərin Mingəçevir SES-i hədəfə almaları barədə sensasion məlumatların yayılması bu konsepsiyanın yenilənməsini gündəmə gətirmişdi.**



**Sülhəddin Əkbər:** "Milli təhlükəsizliyə olan təhdidlər siyasi-strateji səviyyədə qiymətləndirilməlidir"

Qeyd edək ki, dünyanın öndə gedən ölkələri zaman-zaman milli təhlükəsizlik konsepsiyasında yeniliklər ediblər. Azərbaycanın da buna ehtiyacının olub-olmadığı suallar doğurur.

Sabiq MTN-çi, **Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** 9 il öncə qəbul edilən milli təhlükəsizlik konsepsiyasının kağız üzərində qaldığını qeyd etdi: "Hər hansı bir konsepsiya həmin sahəyə aid ideya nəzəri baxışları özündə əks etdirir. Bunun da əsasında praktiki siyasət işlənib hazırlanır. Qəbul edilən konsepsiyada göstərilir ki, Azərbaycanın başlıca hədəfi Avroatlantik məkana inteqrasiyadır. Amma gəlin görək, Azərbaycan bu gün o siyasəti aparırmı? Bu konsepsiya eyni zamanda Azərbaycanın milli təhlükəsizlik siyasəti sahəsindəki öhdəliklərini, prioritetlərini müəyyən edir. 2008-ci ildə Rusiya Gürcüstana hərbi təcavüz etdi və nəticədə Azərbaycan Avroatlantik məkana inteqrasiya söylərinə ara verməli oldu. Digər tərəfdən də Avroatlantik inteqrasiya özü ilə bərabər islahatların keçirilməsini tələb edir. Demokratik, o cümlədən, siyasi islahatların keçirilməsini tələb edir. Azərbaycan xarici təzyiqlər altında bu konsepsiyanı qəbul edib. Amma işdə buna əməl etmir. Müdafiə və təhlükəsizlik sahəsində də islahatlara böyük ehtiyac var. Onun üçün gərək Azərbaycan Silahlı Qüvvələrinə mülkü, parlament, demokratik, ictimai nəzarət olsun, media üçün açıq olsunlar, şəffaf fəaliyyəti göstərsinlər. Bunların heç biri yoxdur. Bütün bunlar olmadığına, Milli Təhlükəsizlik Nazirliyi qapalı fəaliyyət göstərdiyinə görə, orada cəzasızlıq şəraiti hökm sürürdü. Nəticədə də özbaşınalıqlar başlamışdı. Nəzərə alsaq ki, onlar həmin dövrdə özlərinə aid işlərlə məşğul olublar, o zaman kəşfiyyat və əks-kəşfiyyat sahəsində hansı işlər görüblər? Bunların əsas işi ölkədə qeyri-qanuni dinləmələr həyata keçirmək olubsa, ləkələyici material toplamaq, insanları şantaj etmək, xüsusilə, var-dövlət, mülkiyyət ələ keçirmək, hakimiyyətə siyasi qərarların qəbul edilməsində təzyiq etməyi əsas işləri sayıblarsa, demək onlar ölkənin milli təhlükəsizliyinə vaxt ayıra bilməzdilər. Həm milli təhlükəsizlik konsepsiyasına əməl olunmayıb, həm də MTN öz işi ilə məşğul olmayıb. İndi formal olsa da, terrorla mübarizə aparan Antiterror Mərkəzi var. Terrorla mübarizə üçün Daxili İşlər Nazirliyində də müvafiq qurum var. Milli təhlükəsizliyə olan təhdidlər siyasi-strateji səviyyədə qiymətləndirilməlidir. Siyasi səviyyə nədir? Dövlət başçısı və Milli Təhlükəsizlik Şurası səviyyəsində təhdidə qiymət verilməlidir. Bu şurada bütün hüquq mühafizə orqanları, o cümlədən, müdafiə və təhlükəsizlik xidmətləri rəhbərləri təmsil olunurlar. Orada milli təhlükəsizliyə olan bütün təhdidlər qiymətləndirilməlidir. Ondan sonra təhdidlər aktuallığına və kəskinliyinə görə sıralanmalıdır. Hansı təhdidin ilk növbədə, cavablanmağı müəyyən edilməlidir. Buna əsasən də, praktik siyasət qurulmalıdır. Dövlət başçısı da bu öncəliklərə görə tapşırıqlar verməlidir. Milli Təhlükəsizlik Şurası bizdə çox təəssüf ki, formal xarakter daşıyır. MTN-in buraxılması barədə böyük məqalə ilə mətbuatda çıxış etmişəm. Orada görülməli olan bütün işləri sadalamışam. Kəşfiyyat xidmətimiz yenidən qurulmalıdır. Bu da böyük zaman alır və yüksək peşəkarlıq tələb edir. Bu istiqamətdə peşəkar kadrlara böyük ehtiyac var".

**Sabiq MTN-çi hazırda milli təhlükəsizliyimiz üçün olan başlıca təhdiddən də söz açdı:** "Azərbaycanın siyasi rəhbərliyi Rusiyanı dost gözündə görür. Amma tarixə baxmaq lazımdır. Cənubi Qafqaza erməniləri gətirən, torpaqlarımızın işğalında əsas rol oynayan, erməni dövlətinin qurulmasına səbəb olan və bu günə kimi onlara dəstək verən Rusiyadır. Nə qədər ki, bunları anlamamışıq, olan təhdidləri düzgün qiymətləndirə bilməyəcəyik. Dağlıq Qarabağ Rusiyanın Ermənistanı genişləndirmək siyasətinin tərkib hissəsidir. Başlıca təhdid ermənilər deyil, Rusiyadır. Azərbaycanda Rusiya vəkalət mübarizəsi aparır. Ermənistan sadəcə, vəkil rolunda çıxış edir".

**S.Əkbər milli təhlükəsizlik konsepsiyasının yenilənməsinə ehtiyacın duyulduğunu da söylədi:** "İndiki zamanda şərait dəyişdikcə, nəinki ayrı-ayrı dövlətlər, eyni zamanda beynəlxalq və regional təşkilatlar da öz strategiyalarını, konsepsiyalarını dəyişirlər. Çünki vəziyyət dəyişdikcə, ideya nəzəri sənədlər dəyişən vəziyyətə uyğunlaşdırılmalıdır. Dünyanın super gücü olan Amerika Rusiyanın Ukraynaya müdaxiləsindən sonra öz milli təhlükəsizlik konsepsiyasını yenilədi. İlk olaraq, Rusiyanı beynəlxalq təhlükəsizlik üçün başlıca təhdid hesab etdi və strategiyasının başlı məqsədinin Rusiyanı durdurmaq olduğunu açıq şəkildə etiraf etdi. Dünyanın super gücü belə vəziyyətə uyğun konsepsiyasını yeniləyir. Milli təhlükəsizlik konsepsiyası, hərbi doktrina olsun, bunların hamısı dövlətin siyasi baxışlar sistemidir. Bu sistemə uyğun nəzəri baxışlar dəyişir, buna uyğun praktiki siyasətə yeniliklər, korrektələr, əlavələr, tamamlamalar edilir".

❑ **Cavanşir ABBASLI**

# İri şirkətlər Azərbaycandan gedir-səbəb

## Ekspertlər deyir ki, şirkətlər Azərbaycanı tərk etməklə əlavə xərclərini azaldırlar

**"Shell" şirkəti Azərbaycanda nümayəndəliyini bağlayıb. "Royal Dutch Shell"in (Niderland krallığı) törəmə şirkəti "Shell Business Development Cenrtal Asia B.V" Azərbaycanı tərk edir. Kreditorlar hələ iki ay ərzində şirkətə qarşı iddialar irəli sürə bilərlər. Şirkət ölkəmizdə Xəzər dənizinin Azərbaycana məxsus hissəsində axtarış, emal və neft hasilatına dair PSA müqaviləsinə görə *(məhsulun bölgüsü)* 5 faiz paya malik idi.**

"Shell" həmçinin "Kaşaqan" (Qazaxıstan) yatağından əldə olunan neftin Bakı-Tiflis-Ceyhan kəməri vasitəsilə nəql olunmasında maraqlı idi. Lakin sonradan bu qərara yenidən baxıldı və qazax neftinin Xəzər boru kəməri konsorsiumu ilə nəql olunması qərarı verildi. (ANS).

Qeyd edək ki, bundan əvvəl "Samsung", "Nestle" kimi şirkətlər də ölkədən gediblər. Ekspertlər musavat.com-a iri şirkətlərin Azərbaycanı tərk etməsinin səbəblərini açıqlayıblar.

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, böyük şirkətlərin ölkəni tərk etməsinin bir neçə səbəbi var: "Əsas neft sənayesi ilə bağlı məsələlərdir. Bu, Azərbaycanda artıq böyük neft dövrünün geridə qalması ilə bağlıdır. Bundan sonra neft istehsalı ilə bağlı müəyyən irəliləyişin olmayacağı ehtimalından irəli gəlir ki, bu mənada Azərbaycana ciddi şəkildə maraq azalıb. Neftin pik dövrü artıq geridə qaldı. Hasilat hər il getdikcə də azalacaq. Sadəcə 2018-20-ci illər arası qaz hasilatının artması gözlənilir. Birinci səbəb budur. Digər səbəblər isə Azərbaycanda ümumi investisiya mühiti ilə bağlıdır. Ümumi biznes ilə bağlıdır ki, bu da tək "Shell" yox, bir neçə böyük şirkətlər son iki ildə Azərbaycanı tərk etmək məcburiyyətində qalıblar. Bu, "Samsung"la da bağlı olub. Dünyanın ən böyük yeyinti məhsulları istehsal edən şirkəti olan "Nestle" ilə bağlı oldu, nümayəndəlikləri bağladılar. Bu, Azərbaycanda iş şəraitinin, biznes şəraitinin digər ölkələrə nisbətən daha səmərəsiz olmasından irəli gəlir. "Nestle" öz nümayəndəliyini Gürcüstana köçürdü. Orada biznes məsələlərinin, iş şəraitinin daha rahat olduğunu bəyan etdi. Azərbaycan hökuməti bundan dərs çıxartmadı. Azərbaycanda böyük şirkətlərin marağına ehtiyac olmasına baxmayaraq, nə investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı, nə vergi güzəştləri ilə bağlı, nə mülkiyyət toxunulmazlığı ilə bağlı ciddi addımlar atılmır . Azərbaycan həmçinin Ümumdünya Ticarət Təşkilatının üzvü olmur. Bilərəkdən üzvü olmur. Bunun da səbəbi budur ki, ÜTT-nin öz qaydaları var. Oraya üzv olan ölkələr həm vergi, gömrük siyasətində, investisiyalar məsələsində, mülkiyyət toxunulmazlığı məsələsində beynəlxalq standartlara cavab verməyə çalışmalıdır. Bütün bu birbaşa və dolayı səbəblər böyük şirkətlərin Azərbaycana marağını azaldır və getdikcə də fəaliyyət göstərənlər Azərbaycan nümayəndəliklərini bağlamağa daha çox üstünlük verirlər. Çünki əlavə xərclərdən, izafi xərclərdən özlərini sığortalayırlar. Azərbaycandan getməklə bu xərclərin azaldılmasına çalışırlar".




❑ **Röya RƏFİYEVA**



# Bəs imtahandan çıxışın pulu?

Zamin HACI
zaminhaci@gmail.com

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası *(deyəsən indi onun adı Dövlət İmtahan Mərkəzidir - hər halda, bizim üçün heç bir əhəmiyyəti yoxdur, arabaya "Mersedes" deməklə onun statusu dəyişmir)* təzəlikcə Təhsil Nazirliyi ilə dərsliklərin problemləri üstündə dalaşdılar. Heç ağlınıza gəlməz necə önəmli problemlər qaldırılmışdı. Çox konseptual, kurrikulumik, bolonyativ, hətta deyərdim, qalaktik-kosmik-kvantoloji-hipertekstual məsələ müzakirə edildi: TQDK 4-cü sinifin "Repetitora giriş" dərsliyində forzas səhifəsində verilən şeirin əsl adının "Azərbaycan marşı" olduğunu göstərmişdi. Təhsil Nazirliyi isə deyirdi ki, siz bizdə səhv tuta bilməzsiniz, biz özümüz lazım gəlsə sizi niprav çıxardarıq, əvvəla, o səhifə forzas deyil, kitabın 2-ci səhifəsidir, ikincisi isə o şeirin adı ölkəmizdə çoxdan rəsmi olaraq "Azərbaycan Respublikasının himni" kimi qəbul edilmişdir.**

Dəhşət müzakirə idi. Düzü, təhsilimizin başqa bala-ca-malaca dərdlərinə başım qarışdı, heç bilmədim o davanın axırı necə oldu, klassikimiz demişkən, "balıx" yazdılar, yoxsa "balıq". İstəsələr "balığın başı" yazarlar, kimə nə? Ağıllı adamlardır, biz onlara pedaqoqika öyrədəsi deyilik. Bizim təhsil sistemində, maşallah, tfu-tfu, göz dəyməsin, elə kadrlar var MSK sədri Məzahir müəllimi seçkiyə bülletensiz aparıb protokolsuz qaytarar. *(Hərçənd, Məzahir müəllim özü də təhsil sistemimizin yetirməsidir, BDU-da "Talonçuluğa giriş" fənnindən dərs keçirdi).*

Bəs məni narahat edən xırda-mırda problem nə idi, onu deyim. Deməli, 9-11-ci siniflərdə çoxlu uşaq "2" almışdı, sonra TQDK bunun rayonlar üzrə hesabatını açıqladı. Mənim diqqətimi çəkdi ki, ən çox "iki" alan rayonların beşliyində Cəlilabad və Sabirabad rayonlarının adı ilk sırada çəkilmişdi. Belə abadlıq olarmı? Mirzə Cəlil və Mirzə Ələkbər Sabir dirilib gəlsələr adlarının belə təhsili kor qoyulan rayonlara verilməsindən şübhəsiz dilxor olardılar, təzədən vərəmləyib, çərləyib ölərdilər.

Hesabatda başqa maraqlı rəqəmlər də vardı. Misal üçün, Sabirabadın Yolçubəyli kəndindən nə az nə çox, düz 25 nəfər 11-ci sinif şagirdi il ərzində dərsə gəlmədiyindən ümumiyyətlə imtahana buraxılmayıblar. Görəsən, niyə bütöv bir sinif sayı uşağın dərsə gəlmədiyindən kimsə narahat olmayıb? Rayonlarda xeyli 11-ci sinif şagirdinin imtahana gəlməməsinin başqa səbəbi nə tragikomik idi. TQDK onların adının qabağından elə bu cür də yazmışdı: "Hərbi xidmətə çağırıldığı üçün". Demək gör bunlar nə qədər sinifdə qalıblar.

Bu arada təhsil şeflərimizdən, konkret olaraq DİM-dən (dəqiqləşdirdim, imtahan işinə baxan idarənin təzə adı Dövlət İmtahan Mərkəzi imiş, halal olsun bu adı qoyana, istəsələr adını "Yeni Ulduz" Konkurs Mərkəzi qoyardılar, nə edə bilərdik?) başqa novator təklif irəli sürülübdür: deyirlər qəbul imtahanlarını pullu eləməliyik, əziyyət çəkirik, test çap edirik, nəzarət düzəldirik, sizin burnu fırtıqlı, aşırma şalvarlı uşaqlarınıza dədəmizin borcu yoxdur.

Çox yaxşı təklifdir. Doğrudan da millətin uşağı məktəbə, müəllim-repetitora, şadlıq sarayına bənzər universitetlərə bir ətək pul tökür, ancaq qəbuldakılara cəmi 2 manat nəsə kart pulu ödəyir. Xeyir ola? DİM-in qarnı yoxdur? Məncə nəinki imtahana giriş, imtahandan çıxış da pullu olmalıdır. Aparırsan uşaqları basırsan DİM-in bunkerinə, girov götürürsən, hərəsinin dədəsi bir qoyun gətirəndən sonra buraxırsan. Belə olanda təhsilə məsuliyyət hissi artar.

Test suallarını "Poz qazan" lotereyası, imtahan qiymətlərini "Topaz" qəbzləri kimi qayırmaq lazımdır. Testin pulunu imtahan otağında ver, poz, gör nə düşür. Çox pul ver, çox universitetə düşmək şansın olsun. İmtahan qiymətləri açıqlanmazdan öncə "Topaz" mərkəzlərində (təzə binaya ehtiyac yoxdur, bizim Qarabağ dərdimiz var) mərc gəlmək olar: "Həsənqulunun qızının BDU jurfaka girməsinə mençe 2 koefisient!", "Fatma xalanın balaca gədəsinin leçfaka dürtülməsində bolşe filan qədər".

**Bədən tərbiyəsinə girmək istəyən uşaqların pulu olmasa aparıb bağda yer qazdırmaq olar. Qız uşaqları isə DİM rəhbərinin evində yır-yığış eləsinlər.**

# 4 günlük müharibə ilə bağlı yeni versiya

**Aprel döyüşlərindən sonra Qarabağla bağlı siyasi-diplomatik fəallıq artsa da hələ ki, ortada optimist bəyanatlardan savayı heç nə yoxdur. Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakı səfəri də aparılan danışıqlara konkretlik gətirmədi. Hər halda, Rusiya XİN rəhbəri və bu ölkənin ciddi politoloqlarının səsləndirdikləri olduqca nikbin açıqlamalara rəğmən, "yük" yerində qalır.**




Problemin həlli isə sözsüz ki, ən çox Moskvadan asılıdır. Bunu ATƏT-in Minsk Qrupunun digər iki həmsədr dövləti - ABŞ və Fransa, habelə ATƏT sədri Almaniya da etiraf edir. Di gəl ki, Moskva böyük imkan və şansın yaratdığı məsuliyyətə uyğun davranmır, ona bəslənən ümidlərə barmaqarası baxır, obrazlı desək, "sabun bişirmək" istəmir - hərçənd özünü elə aparır ki, münaqişənin nizama salınmasında ən çox elə o maraqlıdır.

## "ABŞ Suriyanı Qarabağa dəyişdirmək istəyir" - Putinin yaxın adamından sensasion iddia

Postsovet məkanındakı münaqişələr iki güc mərkəzinin maraq mübarizəsində "nifaq alması"na çevrilir; **aprel savaşlarını ABŞ-ın qızışdırdığını deyən rusiyalı siyasi analitik:** "Bu hadisələrə bir neçə ay qalmış Bakının mehmanxanalarında amerikalı hərbi təlimatçılardan ibarət qruplar yerləşdirlib"; **"Stratfor":** "Rusiya münaqişənin həllini istəmir..."

Rəsmi Kremlin belə davranışı sözsüz ki, həm də Qarabağ münaqişənin varlığının şimal qonşumuzdan ötrü böyük önəm daşıması və bölgədə, eləcə də konfliktdə Rusiya-ABŞ maraqlarının toqquşması ilə bağlıdır. Odur ki, Kreml tələsmir, yaxud olduqca ehtiyatlı taktika ilə hərəkət edir.

***

Yeri gəlmişkən, srağagün ABŞ-ın nüfuzlu "Bloomberg" agentliyi öz məqaləsində Moskvanın əraziləri boşaltmaq üçün Ermənistana təzyiq eləmək həvəsində olmadığını, deməli, konfliktin çözümünə xüsusi maraq göstərmədiyini yazmışdı. Dünən isə ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan nüfuzlu "Stratfor" araşdırma şirkəti Qarabağa məsələsi ətrafında son durumla bağlı hesabatda Kremlin konfliktin həllində maraqlı olmadığını qeyd edib (Report).

"Qarabağ münaqişəsi ilə bağlı danışıqlar status-kvoda əhəmiyyətli dəyişikliklərə gətirib çıxarmalıdır. Bu münaqişənin həlli sözdən çox əməli iş tələb edir" - "Stratfor" yazır. Analitik mərkəz aprel hadisələrini xatırladır və o vaxtdan bəri döyüşlərin səngidiyini, amma diplomatik fəallığın yüksəldiyini, münaqişənin beynəlxalq ictimaiyyətin diqqətini çəkdiyini bildirir.

Hesabatda həmçinin, S. Lavrovun bu günlərdə Bakıya etdiyi səfər də xatırladılır. Xüsusi diqqət Lavrovun "danışıqlar heç vaxt olmadığı qədər uğura yaxındır" fikrinə yönəldilir. Eyni zamanda "Stratfor" bu məsələdə hansısa detalın diqqətə çatdırılmadığını qeyd edir.

"Stratfor"un hesabatında ardınca vurğulanır ki, Rusiya bu münaqişədə arbitr rolunu oynasa da, problemi həll olunmasını ən az istəyən ölkədir: "Çünki bu münaqişə ona həm Ermənistan, həm də Azərbaycan üzərində nəzarəti əldə saxlamağa, eləcə də regional rəqiblərindən - Türkiyə və ABŞ-dan bir addım öndə olmağa imkan verir".

Sənəddə daha sonra deyilir ki, Dağlıq Qarabağa sülhməramlıların göndərilməsi Moskvanın hərbi mövcudluğunu gücləndirəcək. "Bununla belə, bu addım Rusiya qoşunlarını birbaşa hərbi münaqişəyə cəlb olunma ehtimalını artırdığından, Moskva bundan yayınmaq üçün çalışır".

***

Bu arada vəzifəsinə görə prezident Vladimir Putinə yaxın adamlardan biri, Rusiya Təhlükəsizlik Şurası yanında Elmi Şuranın üzvü, Moskva Dövlət Universitetinin professoru, siyasi elmlər doktoru Andrey Manoylo Qarabağ problemi ilə bağlı kifayət qədər sensasiyalı iddia ilə çıxış edib.

"Svobodnaya pressa"ya müsahibəsində aprel hərbi eskalasiyasına görə məsuliyyəti Amerikanın üzərinə qoyan Manoylo deyib: "Amerikanlar Qarabağ kartından istifadə eləməklə Rusiyanın Güney Qafqazdakı mövqelərini zəiflətməyə cəhd etdilər. Görünür, niyyətləri həm də bizim sərhədlərimiz boyu başqa konfliktləri də qızışdırmaq idi".

Analitik ardınca fikrini belə əsaslandırıb: "Uzun illər Qarabağ konflikti dondurulmuş vəziyyətdə qalmışdı. Heç bir dinamika müşahidə olunmurdu. Və qəfildən ötən yaz vəziyyət kəskin dəyişdi. Bu da ona görə baş verdi ki, ABŞ Suriyada Bəşər Əsədi devirməyə imkan vermədiyimiz üçün bizə bu formada cavab vermək qərarına gəldi".

Rusiyalı professorun sözlərinə görə, Birləşmiş Ştatlar aprel olaylarına bir il qalmış hazırlaşıb: "Mənim həmkarlarım aprel hadisələrinə hələ bir neçə ay qalmış paytaxt Bakının mehmanxanalarında amerikalı hərbi təlimatçılardan ibarət qrupların yerləşdirildiyini görüblər. Amerikanın aktiv müdaxiləsi olmasaydı, münaqişə elə dondurulmuş vəziyyətdə də qalacaqdı. ABŞ yəqin ki, Qarabağda vəziyyəti bir daha gərginləçdirməyəcəyinin əvəzində Rusiyadan Suriya ilə bağlı müəyyən imtiyazlar almağa çalışacaq", - siyasi analitik sonda iddia edib.

Yəni belə çıxır ki, Qarabağ məsələsi iki güc mərkəzi arasında həm də Suriya mövzusunda gizli bir siyasi bazarlıq predmetidir.

***

**Yada salaq ki, aprel döyüşləri başlayanda Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyan IV Qlobal Nüvə Sammiti çərçivəsində Nyu-Yorkda səfərdə olublar. Rusiyanın aparıcı KİV-ləri isə uzun müddət bu hadisələrə görə Türkiyəni ittiham edib, müharibədə guya Ankaranın maraqlı olması iddiaları ilə çıxış edib.**

**❑ Analitik xidmət**

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Rusiya xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfərindən sonra Qarabağ münaqişəsinin həlli ilə bağlı ümidverici açıqlamalar səslənməkdədir. Xüsusilə də Rusiyanın baş diplomatının İrəvan və Bakıdakı görüşlərindən sonra XİN başçıları səviyyəsində verilən nikbin mesajlar diqqət çəkdi. Eyni zamanda bir sıra rusiyalı ekspertlər Qarabağ ərazilərinin azad olunacağı ilə alaqədar açıqlamalarla çıxış etdi.**



# Sərksiyan Qarabağ danışıqlarını pozmaq istəyir?

## Bakıya gətirdiyi informasiya ilə Elmar Məmmədyarovda nikbinlik yaradan Sergey Lavrov erməni prezidentin sayıqlamasına niyə susur? Siyasi şərhçilər fərqli fikirdədir; düşmən tərəfdən isə Azərbaycanın payızda hərbi əməliyyatlara başlayacağı mesajları səslənir...

**Rusiya prezidentinin etibarlı adamı, Rusiya İctimai Palatasının üzvü, politoloq Sergey Markov** "Ermənistan Dağlıq Qarabağ ətrafındakı əraziləri azad edəcək və bu il ilk Azərbaycan ailəsi dağıdılmış evlərinə qayıda biləcəklər" deyərək növbəti dəfə nikbinlik anonsunu ictimailəşdirdi. **Rusiyalı politoloq Aleksandr Fomenkov** isə özünün Facebook səhifəsində Azərbaycan prezidenti İlham Əliyevin çıxışını paylaşaraq yazıb: "Əgər Azərbaycan prezidenti - Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı dövlət sərhədinin güc yolu ilə bərpası haqqında əmr versə, dünyada heç bir insanın (tabii ki, ermənilərdən başqa) ona və Azərbaycana daş atmağa əli qalxmaz".

**Rusiya-Azərbaycan münasibətlərinin kifayət qədər normal olduğu, Ermənistanın əhəmiyyətinin isə Kreml üçün xeyli azalmasının fonunda Rusiyanın erməni işğalına son verəcəyinə və Qarabağda ədalətin bərpa olunacağına Azərbaycanda da inananların sayı artır. Konfliktoloq Elxan Mehdiyev "Yeni Müsavat"a bildirdi ki, danışıqların hazırkı mərhələsinə nikbin yanaşır:** "Qarabağ danışıqları çox kövrək müstəvidə gedir. Məncə, Rusiya Qarabağ məsələsini həll etmək əzmindədir. Məsələnin ciddiliyini artıran budur ki, hazırda məsələ ilə Putin şəxsən məşğul olur və Lavrovu da bu məqsədlə Bakıya göndərmişdi. Əsas odur ki, Rusiya Ermənistana "sən bu cür davam edə bilməzsən" siqnalını verib. Elmar Məmmədyarovun Lavrovla birgə keçirilən brifinqdə dedikləri də ümid yaradır. Rusiya 5 rayonun azad olunmasını, yəni mərhələli həllə start verilməsini istəyir. Ancaq erməni bu işi uzatmaq niyyətindədir. Faktiki olaraq Ermənistan təklənib. Çünki onu nə Rusiya dəstəkləyir, nə də Fransa".

**E.Mehdiyev ABŞ dövlət katibi C.Kerrinin Rusiya səfərinə münasibət bildirərkən qeyd etdi ki, Vaşinqtonun Qarabağla bağlı mövqeyindən müsbət nəticə gözləmir:** "Amerika üçün Qarabağ məsələsi heç vaxt önəm kəsb etməyib. Özü də Amerika destruktiv hərəkətləri ilə daim diqqət çəkib. 1992-ci ildən başlayaraq Amerika Ermənistana 100 milyon yardım ayırırdı, həmin vaxt 100 milyon indiki pulla 1 milyard dəyərində idi. İsraildən sonra Ermənistan Amerikadan ikinci böyük yardım alan ölkə idi və bunun özü elə işğalı dəstəkləmək idi. Bu mənada Amerikadan nəsə gözləməyə dəyməz".

Yeri gəlmişkən, ABŞ Senatı 2017-ci il üçün Azərbaycana 10,9 milyon dollar, Ermənistana 24,1 milyon dollar həcmində maliyyə yardımının ayırılması haqda sənədi təsdiqləyib. ABŞ-ın 2017-ci il üçün nəzərdə tutulan dövlət büdcəsinə Azərbaycan və Ermənistan üçün bərabər həcmdə, hər birinə 22 milyon dollar maliyyə yardımı ayrılması təklif edilirdi.

***

Bu arada Ermənistan prezidenti Serj Sərkisyanın son avantürist açıqlamasını da diqqətdən qaçırmaq olmaz. "Bütün dünya belə Dağlıq Qarabağ əhalisini Azərbaycanın tərkibində yaşamağa inandıra bilməz" deyən Sərkisyanın əslində bu fikirləri danışıqların pozulmasına yönəlib. Erməni prezident bu sözlərə əslində vasitəçilik edən Kremli qəzəbləndirməmək üçün Qarabağ ermənilərinin arxasında gizlənməyə və onlardan alət kimi istifadə etməyə çalışıb.

**E.Mehdiyev bildirdi ki, Sərkisyan Qarabağ ermənilərinin adından istifadə etməklə danışıqların uzanmasına nail olmağa çalışır:** "Bu dəqiqə gedib Dağlıq Qarabağ ermənilərindən soruşsan ki, Azərbaycanla, yoxsa Ermənistanla birgə yaşamaq istəyirsiniz, birmənalı şəkildə Azərbaycanı seçəcəklər. Ermənistan onların nəyinə lazımdır? Ermənistan rejimi neçə illərdir onları girov saxlayır".

Ermənistan prezidenti digər təxribatçı addımı ilə də intensiv xarakter alan danışıqlara kölgə salmağa cəhd göstərir. Onun növbəti dəfə işğal altındakı Dağlıq Qarabağa səfərə hazırlaşması da bundan xəbər verir. Ermənistanın "Qraparak" qəzeti qəzet yazıb ki, səfər zamanı separatçı rejimin "konstitutsion islahatlarla" bağlı məsələləri müzakirə olunacaq (ANS).

Qəzet iyulun 16-da Sərkisyanın Qarabağ səfəri zamanı hər hansı qərarın qəbul olunacağını yazır. Sarkisyanın Azərbaycanın işğal altında olan torpaqlarına bu səfərinin NATO-nun Varşava sammitindən sonra təsadüf etməsi erməni mətbuatının diqqətini cəlb edib. Çünki sammitdə Ermənistanı razı salmayacaq qərarlar qəbul edilib. Ümumilikdə, Serj Sarkisyan apreldə baş verən hərbi əməliyyatlardan sonra işğal olunmuş ərazilərə mütəmadi səfərlər edir. Ermənistan prezidenti son dəfə iyunun 22-də işğal olunmuş ərazilərə səfər edib. O, səfər zamanı Xankəndinə gəldikdən bir neçə saat sonra cəbhənin cənub istiqamətinə gəlib. Erməni prezident Sankt-Peterburq görüşündən sonra da Qarabağa gəlmişdi. İşğalçı ölkən prezidentinin bu davranışları isə sonda cəbhədə gərginliyin artmasına gətirib çıxaracaq, bu, şübhə doğurmur.




**Hətta Ermənistan xüsusi təyinatlı kəşfiyyat diviziyasının yaradıcısı və komandiri Vova Vardanov da savaş təhlükəsinin mövcudluğu barədə danışıb.** "Sentyabr-oktyabr aylarında Dağlıq Qarabağda vəziyyətin yenidən gərginləşməsini gözləmək olar", - deyə erməni komandir bildirib. ANS-in məlumatına görə, Vardanov deyib ki, avqustda Azərbaycanda Türkiyə ordusunun dəstəyi ilə xüsusi təyinatlıların hazırlanması üzrə kurslar başa çatır. "Daha sonra hazırlıq keçmiş həmin xüsusi təyinatlıları yeni hərbi döyüş əməliyyatları üçün döyüş bölgələrinə göndərirlər. Lakin bütün bunlarla yanaşı, daha güclü gərginliyi bu ilin payızında gözləmək lazımdır. Çünki qarşı tərəf yağmurlu hava şəraitindən istifadə edə və hücum etməyə cəhd göstərə bilər. Onlar bilirlər ki, Ermənistan ordusu bu cür hava şəraitində onlara cavab vermək üçün hərbi texnika çıxarmağa çalışsa, həmin texnika palçığa batacaq. Azərbaycan tərəfi bütün bunları yaxşı bilir"- Vardanov bildirib.

Azərbaycan sülh tərəfdarı olduğunu dəfələrlə bəyan edib və danışıqlara sadiqdir. Lakin düşmənin bütün davranışları danışıqların pozulmasına aparır və o halda Azərbaycanın düşmənə sarsıdıcı zərbə vurmağa tam haqqı var. Sərkisyan isə Qarabağa qanunsuz səfərlərini davam etdirməklə buna tam zəmin yaradır. Lakin Lavrovla görüşdən sonra Azərbaycan XİN başçısı Elmar Məmmədyarov "Lavrovun bizə verdiyi informasiya bizdə nikbinlik yaradır" demişdi. Rusiya XİN başçısı isə çox güman ki, İrəvanın mövqeyi barədə informasiya gətirmişdi. Elə isə İrəvan az sonra nədən aqressivlədi? Hər halda Sərkisyanın davranışlarını vasitəçi Rusiyanın sükutla qarşılaması da maraqlı məsələdir. Yoxsa Rusiya və Ermənistan öz aralarında oyun oynayırlar?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** da hesab edir ki, tərəflərin danışıqların dinamizmi ilə bağlı optimizmi özünü doğrultmaya da bilər: "Keçmiş illərdə də belə hallar olub. Hətta danışıqlarda elə il olub ki, ATƏT-in Minsk Qrupu həmsədrləri "münaqişə bu ilin sonuna qədər həll olunacaq" kimi açıqlamalar veriblər. Azərbaycan və Ermənistan prezidentləri 2008-ci ildə Moskvada Rusiyanın keçmiş prezidenti Dmitri Medvedyevin vasitəçiliyi ilə 5 maddəlik ortaq bəyanat imzalamışdılar. O zaman da bu optimist açıqlamalar səslənmişdi. Ancaq bütün bunlar münaqişənin həllini və sülh anlaşmasının imzalanmasını sürətləndirmədi. Ona görə də əgər bu dəfə də danışıqlar konkret nəticəyə gətirib çıxarmasa, bir neçə aydan sonra cəbhə bölgəsindəki vəziyyət yenidən gərginləşəcək. Bu arada Ermənistan rəsmilərinin və siyasi ekspertlərinin Lavrovun Bakıdakı görüşlərini və qarşılıqlı verilən açıqlamalara isti-isti münasibət bildirməkdə çətinlik çəkdiyini də müşahidə etdim. Yəqin onlar özləri üçün aydınlaşdırmaq istəyirlər ki, görəsən Azərbaycan rəsmilərinin Lavrovla danışıqlarda səsləndirdikləri "biz sülhə əvvəlkindən daha yaxınıq", "danışıqlarda müsbət dinamizm var" kimi ifadələrlə nəyi nəzərdə tutublar? Bunun əvəzinə Ermənistan rəsmilərinin qəribə açıqlamaları ilə tanış oldum. Ermənistan prezidenti Serj Sərkisyan ərəb kanallarından birinə verdiyi müsahibədə dedi ki, "əgər hətta bütün dünya Dağlıq Qarabağ əhalisinə desə ki, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yaşasın, xalq yenə bunu qəbul etməyəcək". Yəni bütün dünya beləmi deyir ki, Sərkisyan narahatdır? Və ya xarici işlər nazirinin müavini Şavarş Köçəryan "münaqişənin paket həlli Dağlıq Qarabağın tanınmasından başlamalıdır" açıqlamasını verdi. Məncə, danışıqlar nə "paket həll" nə də "mərhələli həll" planı üzrə gedir, müzakirələr bu iki planın kombinasiyası ətrafında gedir. Bu gedişat isə növbəti toqquşmaya aparar".

***

Rusiyanın təşəbbüslərinə Qərbdən verilən dəstəklə bağlı **politoloq Elçin Mirzəbəylinin** maraqlı fikirləri var. Onun sözlərinə görə, Qərb liderlərinin Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində Rusiyanın rolunu qabartmaları və bunu təkrar-təkrar, hətta mübaliğəli şəkildə dilə gətirmələri məqsədyönlü xarakter daşıyır: "Məsələnin bilavasitə Rusiyanın əli ilə tənzimlənməsi bütün hallarda Qərbin marağındadır. Əgər Rusiya münaqişənin ədalətli həlli üçün müvafiq addımlar atarsa, işğalçı qüvvələrin Azərbaycan ərazilərini tərk etmələri üçün Ermənistana təzyiq göstərərsə, bu zaman Ermənistan Rusiya ilə düşmən olacaq. Yox, Rusiya mövcud status-kvonun qorunması, yaxud problemin işğalçı Ermənistanın maraqlarına uyğun həlli üçün Azərbaycana açıq təzyiqlər göstərməyə davam edəcəksə, bu halda Moskvanın Bakı ilə münasibətlərinə birdəfəlik son qoyulacaq". **E.Mirzəbəylinin qənaətincə, Rusiyanın strateji maraqları üçün ən uğurlu seçim münaqişənin ədalətli həllinə nail olmaqdan ibarətdir:** "Çünki hər tərəfdən türk dövlət və toplulukları ilə üzük qaşı kimi əhatə olunmuş Ermənistanın coğrafi baxımdan onsuz da heç bir seçimi yoxdur. Rusiyanın Qarabağ münaqişəsinin ədalətli həllinə nail olması Moskvanın türk dünyasının etimadını qazanması deməkdir. Bu isə Avrasiyaçılıq ideyasının gerçəkləşməsinə apara biləcək, Rusiyanı gələcək parçalanmalardan qoruyacaq yeganə yoldur.

Hər halda qarşıdakı dönəmlərdə kimin haqlı olacağı üzə çıxacaq. Rusiya aprel döyüşlərindən sonra "açar" rolunu oynayacağına Qərbi də inandırıb. Ancaq ilin sonuna qədər ümidlər doğrulmayacağı halda, Qarabağı müharibədən azad etməyin hərbdən başqa alternativi qalmayacaq. Hər halda Azərbaycan danışıqların sonsuza qədər davam etməsinə dözmək fikrində olmadığı kimi, Sərkisyanın Qarabağa qanunsuz səfərlərini də sadəcə, müşahidə etmək niyyətində deyil".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



# 75-ci baş nazirin istefası

**Samir SARI**

**51 yaşlı Artur Tahir oğlu Rasi-zadə 1986-cı ildə Azərbaycanın baş nazirinin birinci müavini olanda 20 yaşlı Devid Uilyam Donald Kemeron Oksford universitetində 3-cü kurs tələbəsiydi.**

Bu gün 50 yaşlı Devid Uilyam Donald Kemeron Britaniyanın baş naziri vəzifəsindən gedib, amma 81 yaşlı Artur Tahir oğlu Rasi-zadə hələ də ölkəmizin baş naziridir.

Bu sözləri yazmaqda məqsəd o deyil ki, cənab Rasi-zadənin təqaüdə çıxmaq yaşının çatıb da ötdüyünü iddia edim. Haşa! Zinhar belə bir niyyətdə olmamız mümkün deyil. Çünki bu ali mənsəb söhbətidir, dövləti-aliyyənin ixtiyarında olan məsələdir.

Sadəcə, rəqəmlər maraqlı gəldi. Bir də D.U.D. Kemeronun (bundan belə, eləcə Kemeron və ya Devid) vəzifədən ayrılması proseduru maraqlı göründü.

Deməli, İngiltərə tarixinin ən gənc baş naziri olmuş bu şəxs (yeri gəlmişkən, o, bu sətirlərin müəllifindən bir yaş uşaqdır) elə asanlıqla istefa verdi ki, az qala siyasi rəqibləri də "etmə, eləmə" deyə ona minnətçi düşəcəkdilər.

Nə var, nə var, Kemeron deyirmiş ki, gəlin Avropa Birliyindən çıxmayaq, Breksit etməyək, amma ingilis xalqı referendumda "eksit etməyimiz şərtdir" deyə ortaya mövqe qoyunca, Kemeron deyib ki, "siz eksit, mən də eksit".

Yeri getməmişkən, deyim ki, biz "referendum"a insanların kütləvi şəkildə "referendurum" dediyi dövlərdən keçib gəlmiş adamlarıq, referendumdan çıxan nəticənin qarşısında boynumuz epilyator təzyiqnə məruz qalmış qıldan nazikdir. Devid də elə düşünüb, fikirləşib ki, xalq bunun sözünü eşitmirsə, vəzifədə qalması ona haram olar.

İndi kimsə deyəcək ki, ona qalsa, bizim xalq da Artur Rasi-zadəni eşitmir. Düzdür, amma Artur müəllim danışmır axı, danışsa, nəsə bir söz desə, xalqımız onu dinləyər də, eşidər də. Əslində isə belə daha yaxşıdır. Çox danışan baş nazirləri görürük. Bir söz deyirlər, sonra camaat hoydu-hoyduya götürür, onlar da məcbur olurlar ki, "o mənada deməmişəm" desinlər.

Artur müəllim köhnənin injeneridir, o, az və saz danışmağı 43 il bundan əvvəl, 1973-cü ildə "Azneftsənayemaş" birliyində baş mühəndis olarkən öyrənib. O zaman Devid kollecdə 1-ci sinifə gedirdi, heç Great Britain sözünü düzgün yazmağı da bacarmırdı.

O zaman heç kəs bu çəhrayı yanaqlı, kəkilli, totuş uşağa baxıb deyə bilməzdi ki, vaxt gələcək, o, Böyük Britaniyanın 75-ci baş naziri olacaq.

Biz gözümüzü açandan bəri Artur müəllimi böyük vəzifələrdə görmüşük. Çox adam elə bilir ki, ondan qabaq müstəqil Azərbaycanın baş naziri olmayıb. Amma elə deyil. Ondan qabaq ölkəmizin azı beş baş naziri olub, adama bir il, para il işləyiblər.

İndi onlarla Kemeronun statusu arasında elə bir fərq yoxdur. Hamısı sabiq baş nazirdir. İntəhası, onlar Cənubi Qafqaz regionunun lider ölkəsi olan Azərbaycanın sabiq baş nazirləridir, Kemeron isə dünyanın 5 böyük dövlətindən biri olan Britaniyanın sabiq baş naziridir.

Bir də aradakı ən yekə fərq odur ki, bizim sabiq baş nazirlərin ikisi sabiq olandan sonra türməyə gedib, biri 3-4 il unudulmaq həsrəti ilə yaşayıb, sonra səfir vəzifəsinə düzəlib, biri də tamam unudulub, ad-soyadını ancaq yaşlı politoloqlar bilir.

Belə görünür ki, Kemeronu dolaşdırıb tutmayacaqlar. Adam postundan çox əmin-arxayın şəkildə ayrıldı, arvad-uşağının əlindən tutdu, kefikök halda getdi. Misterin uşaqları özləri-ni elə aparırdılar, sanki İbiza adasına kurorta gedirlər.

Əlbəttə, Kemeronun zibil işləri olsaydı, gecəylə ölkədən qaçmalıydı. Şərq tərəflərdə elə olur. Baş nazir nədi, vəzifəsindən çıxdı, ölkədə qaldı nədi. Elə şeymi olar?

Bax, Devidin sələfi Toni Bleyri tuta bilərlər, nəsə xətakün işləri olub, adı manşetlərdə gəzir. İntəhası, o da heç yerə qaçmayıb, necə deyərlər, ədalətə, bahalı vəkillərin müdafiəsinə sığınıb.

Bəs kim bilir, vəziyyət dəyişsə, Kemeron təzədən baş nazir postuna qayıda bilərmi? Ola bilər. Məsələn, Artur müəllim bir dəfə baş nazir vəzifəsindən gedib, sonra xalqın təkidli tələbi ilə yenə gəlib. Kemeron isə özü qayıtmaz. Çünki vəzifədən o cür, çiynindən yük götürülmüş kimi gedən adamlar bir də özlərini yük altına verməzlər.

**İbiza adasında oğul-uşaqla futbol-voleybol olmaq varkən, Kemeron gəlib 81 yaşına qədər dövlət yükü daşıyası deyil ki...**

# "Şakro kürd"ü azərbaycanlı satmayıb-"Lənkəranski" onun düşmənidirmi?

## Zaxari Kalaşava qarşı guya ifadə verən sirli Həmidovun Azərbaycana heç bir aidiyyəti yoxdur; Federal Təhlükəsizlik Xidməti DİN sistemində cinayətkar aləmlə "birləşmiş" dəstə ilə bağlı araşdırma aparır

**İyulun 13-də Moskvanın Tver Rayon Məhkəməsinin iki aylıq həbs qərarı verdiyi "Şakro kürd" ("Molodoy") kimi tanınan "qanuni oğru" Zaxari Kalaşovun azərbaycanlı avtoritetlərlə münasibətləri, hətta onların "tacı"nın alması, eləcə də onu azərbaycanlı "Həmidov"un ələ verməsi barədə xəbərlər Azərbaycan KİV-lərində də yer almaqdadır.**

**Rusiyanın "kriminal marşalı" hesab olunan, amma rəsmi yazışmalarda daha çox iş adamı kimi tanınan "Şakro"nun bir cinayət işi ilə bağlı 7 ay sonra tutulması haqlı suallar doğurur ki, bu barədə ötən sayımızda qeyd etmişik. Rusiya KİV-ləri hər gün "Şakro"nun həbsi ilə bağlı geniş materiallar dərc edir, telekanallar onun keçmişi, biznes əlaqələri, dəbdəbəli evinin qiyməti ilə bağlı süjetlər verir. Rusiya mətbuatı yazır ki, "Şakro"nun həbsi Rusiyanın DİN sistemində geniş antikorrupsiya əməliyyatına çevrilə bilər.**

Xəbər verdiyimiz kimi, bu iş üzrə Odinsov Rayon Cinayət Axtarış Şöbəsinin əməliyyatçısı İldar Şakirov,sahə müvəkkili Rinat Zinatullin hələ yanvar ayında həbs edilib. Onlar "Şakro"nun əməllərini ört-basdır etməkdə günahlandırılır. Bir neçə gün əvvəl isə "qanuni oğru" ilə əlaqələrinə görə yüksək rütbəli zabit Yevgeni Çijikov həbsə alınıb. "Rosbalt"ın məlumatına görə, Federal Təhlükəsizlik Xidməti DİN sistemində cinayətkar aləmlə "birləşmiş" dəstə ilə bağlı araşdırma aparır və həbslər daha da genişlənəcək. Restorandakı atışmaya görə həbsdə olan "İtaliyan" ləqəbli Andrey Koçuykovun iyunun 14-də azadlığa buraxılmasını təşkil edənlərin də çevrəsi artıq müəyyənləşdirilib. Yəni "Şakro"nun həbsinin təşkili onun "təmizlik apardığı" kriminal aləmdəki düşmənlərinin işinə oxşamır. Bu, artıq miqyaslı bir əməliyyatın ilk pərdəsidir və davamı olacaq. Həm kriminal aləmdə yeni həbslər, həm də onları himayə edən hüquq-mühafizə orqanları sırasında...

İndi gələk, "Şakro" işində azərbaycanlıların adının hallanmasına. Bildirilir ki, "Şakro Molodoy"a qarşı ifadə verənlərdən biri Həmidov soyadlı azərbaycanlıdır. Həmidov soyadlı dedikləri Qarson Həmidovdur. O, Azərbaycanda yox, Dərbənddə anadan olub. O, ötən ilin dekabrında basqın edilən "Elements" restoranında sadə mühəndis işləyib. Qarson restoranda təmir smetası və ustaların işə cəlb olunmasına görəvli olub. İllərdir ki, o, Moskvada məhz bu işlərlə məşğul olurmuş. Onun ailəsi də hazırda Dərbənddə yaşayır, iki azyaşlı uşağı var. O, cinayət işində şahid kimi tanınıb. Amma iyulun 15-də gözlənilmədən "Elements"in sahibəsi Janna Kim onun haqda da şikayət verib ki, guya Həmidov da ondan zorla pul almaq istəyirmiş. Onu iş yoldaşı olan bir özbəklə birgə tutublar. Onun atası Süleyman Həmidov nəfəs yolları aparatlarının tanınmış ixtiraçısıdır, anası Saniyət Cəbrayılova isə elmlər namizədidir. Onu həbsdən buraxılması barədə hələ ki, dəqiq bilgi yoxdur. Göründüyü kimi, Həmidovun azərbaycanlı olması və "Şakro"nun həbsinin guya onun istintaqla əməkdaşlığı sayəsində baş verdiyinə dair heç bir dəlil yoxdur. Qarsonun və Həmidovların milliyyətcə azərbaycanlı deyil. Onun avar və ya digər Dağıstanda yaşayan digər millətlərdən birinin nümayəndəsi olduğu daha realdır.





"Elements"in sahibəsi Janna Kim

Fatimə Misikova





"İtaliyan" ləqəbli Andrey Koçuykov

Daha bir təsdiqlənməmiş məlumat "Şakro"nun azərbaycanlı "qanuni oğru" Rövşən Canıyevin ("Lənkəranski") titulunu alması və ya ona ölüm hökmü çıxarması barədədir. "Yeni Müsavat" "Lənkəranski"nin adının alınması barədə Rusiya KİV-lərində və kriminaldan yazan saytlarında hər hansı bilgiyə rast gəlməyib. Mümkündür ki, bu iddialar "Şakro" azadlığa çıxdıqdan sonra guya Ermənistanda baş tutmuş "sxodka"dan ("oğru toplaqntısı") sonra yayılmış dezinformasiyadan gedir. Çünki Ermənistanda nə belə toplantı, nə də "Lənkəranski"nin "qanuni oğru"nun adının dayandırılması barədə qərar olub. "Şakro" nun bir neçə belə qərar verib. Pulla, hətta bir gün həbsdə yatmayanlara "oğru" adı verilməsinə qarşı çıxıb və bir neçəsinin adını geri alıb. Bu səbəbdən də son aylar böyük bir ordu ilə gəzirmiş. Ölüm hökmünə gəlincə "Ded Xasan" klanın belə bir qərar verməsi barədə hələ əvvəllər də yazılıb. Amma bunun altına imza qoyan varsa, o dəqiq "Şakro" deyil.

Nəhayət, "Şakro"nun yaxın tanışı, daha dəqiqi sevgilisi kimi təqdim edilən azərbaycanlı haqda. Məlumdur ki, ötən ilin dekabrındakı hadisə azərbaycanlı olduğu deyilən dizayner Fatimə Misikova arasındakı borca görə baş verib. Belə ki, Janna Fatiməyə "Elements" restoranın yenidən dizayn edilməsini sifariş verib. Amma görülən iş onu qane etməyib. Görülən işə görə 600 min avro ödəyən biznesmen xanım azərbaycanlı dizaynerlə əlaqələrini kəsib. Fatimə isə öz növbəsində çoxdan tanıdığı "Şakro"ya müraciət edərək restoran sahibəsinin 9 milyon rubl borclu qaldığını iddia edib.

Məlum olur ki, "Şakro" özü əslində həmin gecə Janna Kimin restoranına gedibmiş. Atışma zamanı hətta yüngül yaralanıb da. Amma bu istintaqda gizlədilib. Görünür ki, indi istintaqın əlində daha tutarlı dəlil var. Daha bir maraqlı fakt. Bildirilir ki, iki nəfərin ölümü ilə nəticələnən hadisədən sonra Fatimə öz ölümünü səhnələşdirib. Bu müddət ərzində ölkə xaricində olan dizayner istintaq "Şakro"nu sıxışdırmağa başlayanda "dirilib." Rusiya mətbuatı yazır ki, onun barəsində də beynəlxalq axtarış veriləcək. Rusiya mənbələrində onun azərbaycanlı olmasını təsdiqləyən ələvə bilgilərə rast gəlmədik.

**ORXAN**

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016

**Hər il olduğu kimi, bu il də dərsliklərlə bağlı problemlər aktuallığını qoruyub saxlayır. Son olaraq da təhsil naziri Mikayıl Cabbarovla İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə arasında gərginlik yaşanması bu məsələni daha da aktuallaşdırıb. Çünki buradakı mübahisəyə də səbəb sırf dərsliklər və bununla bağlı İmtahan Mərkəzinə verilən kobud cavablarla bağlıdır. Dərsliklərlə bağlı söyləntilərə və iddialara daha dəqiqliyi ilə cavab tapmaq üçün suallarımızı Təhsil Nazirliyinin Təhsil resursları şöbəsinin müdiri Elvin Rüstəmova ünvanladıq.**



# “İmtahan Mərkəzi ilə aramızda gərginlik yoxdur”

## Təhsil Nazirliyinin şöbə müdiri Elvin Rüstəmov: “Dərsliklərlə bağlı real səhvlərin olduğunu heç kim inkar etmir”

***- Dərsliklərdəki səhvlər hər il müzakirə mövzusu olsa da çıxış yolu tapılmır. Dərsliklərdə bu qədər səhvlərin olması nə ilə bağlıdır?***

- Əvvəlcə dərsliklərin necə ərsəyə gəlməsi barədə məlumat vermək istərdim. Dərslik deyəndə biz məktəblərdə istifadə edilən əsas tədris resurslarını nəzərdə tuturuq. Çünki dərsliklər və dərs vəsaitləri çoxdur. Məktəbdə istifadə olunan dərslikdən danışırıqsa, bilməliyik ki, Təhsil Nazirliyi həmin dərslikləri müsabiqə yolu ilə nəşriyyat-poliqrafiya müəssisələrindən satın alır və məktəblərdə şagirdlərin istifadəsinə verir. Bu müsabiqəyə müxtəlif nəşriyyatlar öz müəllif heyəti ilə qoşulur və onlar dərslik hazırlayıb müsabiqəyə təqdim edirlər. Müsabiqədə neçə dərslik təqdim olunursa, onlar müsabiqənin qaydalarına əsasən qiymətləndirilir. Dərsliklərin qiymətləndirilmə prosesi Dərslikləri Qiymətləndirmə Şurası tərəfindən təşkil olunur. Bu qurum elm adamları, metodistlər və yüksək səviyyəli mütəxəssislərdən təşkil olunur. Ən yüksək keyfiyyətə malik dərslik seçilir və bu dərslik onu müsabiqəyə təqdim etmiş təşkilatdan müqavilə ilə satın alınır. Sonra bu dərsliklər qiymətləndirmə zamanı verilən müxtəlif rəylər əsasında təkmilləşdirilir. Biz bu ildən dərslikləri tam məzmunu ilə ilk səhifəsindən sonuncu səhifəsinə kimi sayta qoyuruq ki, bütün ictimaiyyət öz fikrini bildirsin.

Dərslik təkmilləşdirildikdən sonra şagirdlərin sayına uyğun olaraq çap edilir və məktəblilərin istifadəsinə verilir. Dərsliklər məktəblərə verildikdən sonra, yəni sentyabr ayından sonra oradakı səhvlərlə bağlı müzakirələr başlayır. Ancaq dərsliklərlə bağlı sosial şəbəkələrdə, KİV-lərdə səhv kimi qələmə verilən faktlar da əslində həmişə öz təsdiqini tapmır. Məsələn, bir çox hallarda səhvlər kimi qələmə verilən faktlar dərsliklərdə yox, hansısa başqa kitablarda olur. Kimsə eləvə oxu üçün kitab və ya hansısa test kitabçası yazıb satışa çıxarır. Və həmin kitablarda hansısa səhvi görənlər elə bilir ki, bu, dərslikdə olan səhvdir. Məktəblərdə istifadə olunan dərsliklərin titul səhifəsində “Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir” sözləri yazılır və əmrin tarixi, nömrəsi qeyd olunur.

Bir çox hallarda isə dərsliklərdə səhv kimi qələmə verilən faktlar elmi əsası olan, lakin mentalitet baxımından qəbul etmədiyimiz həssas məqamlar olur. Belə hallar olanda biz onu müzakirəyə çıxarırıq. Mütəxəssislər deyir ki, bu doğrudur, amma müəyyən insanlar düşünür ki, bu fakt uşaqlara öyrədilə bilməz. Bəzən isə səhv kimi qəbul edilən məsələni araşdırıb görürük ki, kitabı yazan müəllif onu elmi mənbəyə əsaslanaraq yazıb. Bunu səhv kimi təqdim edənlər isə başqa bir elmi mənbəyə istinadən ona səhv olduğunu deyir. Bu zaman elmi mənbələrin arasında uyğunsuzluqlar, təzadlar olduğunu görürük. Bu baxımdan “səhv” deyilən məsələlərə nisbi mənada yanaşılmalıdır.

Təbii ki, dərsliklərdə real səhvlərin də olduğunu heç kim inkar etmir. Belə səhvləri dərslikləri təkrar çap edəndə düzətdiririk. Bu hallar ən inkişaf etmiş ölkələrin dərsliklərində istisna olunmur.

***- Dərsliklərin müəlliflərini nəşriyyat özü təyin edir. Bir sıra təhsil mütəxəssisləri isə bu müəlliflərin əksəriyyətinin təhsil elmindən, pedaqogikadan anlayışlarının olmadığını deyirlər. Bu nə dərəcədə həqiqətə uyğundur?***

- Artıq qeyd etdiyim kimi, Təhsil Nazirliyi dərsliklərin alınması üçün müsabiqə keçirir. Müsabiqədə ən yüksək keyfiyyətə malik dərslik seçilir. Alınan dərslik ən yüksək keyfiyyətli dərslikdirsə, onu yazanların kim olması ikinci dərəcəli məsələyə çevrilir. Lakin sualınıza cavab olaraq, onu bildirim ki, müəlliflər nəşriyyata işə götürülərkən və müəllifliyə kimisə seçərkən onların ali təhsil diplomu tələb olunur. Diplomsuz işə götürmə mümkün olmursa, deməli, həmin müəlliflər müvafiq ixtisas üzrə ali təhsilə malik mütəxəssislərdir. Lakin bir daha vurğulamaq istəyirəm ki, əsas son məhsulun, yəni dərsliyin keyfiyyətidir.

***- Dərs yükü ilə proqram uyğun gəlmədiyi və şagirdlərin bu proqramı 9 ay müddətində qavraya bilmədiyi də səslənən fikirlər arasındadır. Təhsil proqramını bir az sadələşdirmək olmazmı?***

- Dərsliklər təhsil proqramları *(fənn kurikulumları)* və standartlar əsasında yazılır. Müasir təhsil proqramları isə artıq mövzular toplusu deyil. Təhsil proqramlarımız bilik və bacarıqları müəyyənləşdirir. Misal üçün, təhsil proqramında deyilir ki, 1-ci sinfin şagirdi 1-ci sinfin sonunda 20-yə qədər düzünə və geriyə saymağı bacarmalıdır. Artıq o müəllifin yaradıcılığı məsələsidir ki, bu dərslikdə o bacarığı şagirdə mənimsətmək üçün nələrdən və necə istifadə edəcək. Lakin bir şey dəyişməzdir, ilin sonuna şagird üçün tələb olunan və gözlənilən bacarıq (standart) mənimsənilməlidir. Bu baxımdan da dərslik müəllifləri təhsil proqramının tələblərini yerinə yetirmək şərti ilə dərslikləri yazırlar. Bir şeyi də qeyd etmək istərdim ki, bu gün bizim tədris sistemimizdə vahid dərslik və müxtəlif səviyyəli *(zəif, orta, yüksək bacarığa sahib)* şagirdlər var. Dərsliklər əsasən orta statistik şagirdə hesablanmış olur ki, geridə qalan şagirdləri önə çəkmək mexanizminə malik olsun. Daha irəlidə gedən şagirdlərlə isə işləmək mexanizmini müəllimlər özləri təyin edirlər. Dərslik tək olduğu üçün orta statistik şagird səviyyəsində yazılır. Zəif oxuyan şagirdlərə də bu, çox çətin gəlir. Bizə elə bir elmi tədqiqat nəticəsi məlum deyil ki, sübut etsin ki, dərsliklərdə yazılanlar orta şagird səviyyəsini, yaxud təhsil proqramında nəzərdə tutulan bilik və bacarıq tələblərinin səviyyəsini aşır. Cəmiyyətdə fikirlər müxtəlif ola bilər. Lakin bu, o demək deyil ki, bütün səslənən fikirlər həqiqətdir. Lakin ən başlıcası odur ki, təhsilə, dərsliyə həmişə diqqət olsun və hərə öz biliyindən çıxış edərək bunu müzakirə etsin. Əgər təhsil məsələlərinə bələd olmayan insan da təhsil haqqında danışırsa, bu, müsbət haldır. Təhsil Nazirliyi olaraq bizim marağımız ondadır ki, təhsil hamını maraqlandırsın. Təhsilimiz nə qədər çox müzakirə edilsə, bir o qədər də inkişaf edəcək.

***- 1 fənn üzrə bir neçə kitab, iş dəftəri, test kitabçası və sairə var. Üstəlik şagirdlər BSQ VƏ KSQ zamanı da əlavə testlərin sürətini çıxartmalı olurlar. Bu da valideynlərin narazılığına səbəb olur. Bu çeşid çoxluğu nəyə əsaslanıb?***

- Təhsil proqramlarında hər bir sinif üçün gözlənilən nəticələr var. Gözlənilən nəticələri həyata keçirmək üçün Təhsil Nazirliyi minimal resursları verir. Minimal tədris resursları dərslik və müəllim üçün metodik vəsaitdir. Bu ikisi kifayət edir ki, təhsil proqramında nəzərdə tutulan nailiyyətlər əldə olunsun. Lakin hər bir insan istəyir ki, daha zəngin təhsil alsın. Əgər kimsə uşağının əlavə bilik almasını istəyirsə, digər resurslardan istifadə edə bilər. Yəni bu, könüllülük əsasındadır. Resurslar nə qədər zəngin olsa, təhsil də bir o qədər zəngin olacaq. Şagirdlər də fərqli olur. Bəziləri orta səviyyədə yazılan dərsliyin məzmununu çətinliklə qavrayır. Bəziləri isə daha inkişaf etmiş uşaqlardır və valideynləri istəyir ki, onunla əlavə resurslarla iş aparılsın.

***- Uşaqların çantası olduqca ağırdır. Bu kitabların çoxluğu, çəkisi yoxsa dərs yükü ilə əlaqəlidir?***

- Şagirdlərin çantası əslində o qədər də ağır deyil. Səhv etmirəmsə, bir dərslik 180-200 qramdır. Biz bir dəfə ibtidai sinif şagirdinin dərsliklərini çəkdik, onun ağırlığı ibtidai sinif şagirdinin səviyyəsinə uyğundur. Lakin o da həqiqətdir ki, biz çantalara baxanda orada dərsliklərdən əlavə, xeyli sayda başqa əşyaların olduğunu görürük.

***- Kurikulum sistemi özünü doğrultdumu?***

- Kurikulum sistemi deyilən bir şey yoxdur. Ənənəvi təhsil proqramına indi “kurikulum” deyirik. Kurikulum məzmunu dəyişilmiş təhsil proqramıdır. Sadə misalla izah etməyə çalışım. Əvvəlki təhsil proqramında, məsələn, yazılırdı ki, Səməd Vurğunun filan əsəri keçilməlidir və buna 2 saat verilir. Əvvəlki proqramda müəyyənləşdirmək çətin idi ki, bu 2 saatda Səməd Vurğunun əsərini keçdikdən sonra şagird hansı bacarığa yiyələnəcək. O, dinlədiyi nitqi və ya oxuduğu mətni şərh etməyi bacaracaqmı? Amma indi “2 saat Səməd Vurğunun filan əsəri keçirilməlidir”, əvəzinə yazılır ki, şagird dinlədiyi nitqi şərh etməyi bacarmalıdır. Yəni şagirddən gözlənilən bacarıqlar, nəticələr müəyyənləşdirilir.

***- Təhsil naziri Mikayıl Cabbarovla Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə arasında yaşanan gərginlik haqda nə deyə bilərsiz?***

- Bizim aramızda siz dediyiniz formada heç bir gərginlik yoxdur. Dövlət İmtahan Mərkəzi dərsliklərin monitorinqi ilə məşğuldur. Monitorinq apardıqdan sonra onlar yekun rəyləri təqdim edirlər. Yekun rəylərə də Təhsil Nazirliyi yox, həmin dərsliklərin müəllifləri cavab verirlər. Burada Təhsil Nazirliyindən söhbət getmir. Təhsil Nazirliyi dərslik siyasətini həyata keçirən bir qurumdur. Təhsil Nazirliyinin işçiləri də məmurlardır. Onlar dərslik siyasətini, qayda-qanunları düşünürlər ki, necə edək ki, təhsilin keyfiyyəti qalxsın. Biz dərslik yazmırıq. Dövlət İmtahan Mərkəzi də dərsliklərə rəy verəndə, bu rəylər həmin dərsliyi hazırlayan nəşriyyatlara gedir və onlar da cavab verirlər. Dövlət İmtahan Mərkəzi həmin müəllimlərin cavablarını sayta qoyanda Təhsil Nazirliyinin cavabı kimi təqdim edib. Anlaşılmazlıq da buradan başlayıb. Artıq Dövlət İmtahan Mərkəzi bu anlaşılmazlığı aradan qaldırıb.



**“Cəmiyyətdə səslənən hər fikir həqiqət deyil”**

Yuxarıda qeyd etdiyim kimi, biz dərslikləri sayta qoyuruq və ictimai müzakirəyə çıxarırıq. Dərsliklərə dair 1544-ə yaxın ictimai rəy almışıq. Biz dərsliklərin ictimai müzakirəsində daha çox rəy alacağımızı gözləyirdik. Bu məsələdə passivlik var və yalnız dərsliklər istifadəyə verildən sonra hər kəs fikir bildirməyə başlayır. Dərsliklərlə bağlı nə qədər çox rəy olsa, bir o qədər yaxşıdır. Bu, müəlliflərə dərslikləri təkmilləşdirməkdə çox kömək edər. Amma bu, o demək deyil ki, hər fikir mütləq olaraq doğrudur və nəzərə alınmalıdır. Dərsliyə irad və təkliflərin çoxluğu onların mütləq müəllif tərəfindən nəzərə alınması anlamına gəlməməlidir. Müəllif hüququ da ümumbəşəri dəyərlərdən olduğu üçün ona da hörmətlə yanaşılmalıdır. Başqa sözlə, son qərarı dərsliyin müəllifləri verməlidir. Çünki bu, onların əsəridir.

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**



# "Britaniya-Azərbaycan münasibətləri daha da inkişaf edəcək"

## Politoloq: "Yeni hökumətin ömrü uzun olmayacaq"

**Böyük Britaniyada Mühafizəkarlar Partiyasının lideri Tereza Mey baş nazir təyin olundu. O, kraliça II Yelizavetanın fərmanından sonra vaxt itirmədən yeni hökumətini də formalaşdırdı.**

Belə ki, yeni Nazirlər Kabinetində ən təcrübəli isimlərdən biri Londonun sabiq bələdiyyə başçısı Boris Conson xarici işlər naziri vəzifəsini tutdu. Conson referendumda Avropa Birliyindən ayrılmağın tərəfdarları sırasında idi. Artıq Britaniyanın Avropa İttifaqından çıxması ilə bağlı bütün işlər yeni xarici işlər nazirinə həvalə edilib.

Boris Conson Britaniya tarixində qeyri-adi siyasətçi kimi tanınır. Belə ki, o, 2008 və 2012-ci illərdə Londonun meri seçilib. 2016-cı ildə keçiriləcək seçkilərdə iştirakdan isə imtina edib. Britaniyanın Baş naziri postuna əsas namizədlərdən olan siyasətçi son anda bu qərarını da dəyişib.

Bundan başqa Tereza Mey sabiq baş nazir David Kemeron dövründə xarici işlər naziri vəzifəsini icra edən Filip Hammondu maliyyə naziri təyin edib. Tereza Mey hökumətində yalnız müdafiə naziri öz vəzifəsini qoruya bilib. Belə ki, 2014-cü ildən müdafiə naziri vəzifəsində çalışan Maykl Fellon ölkəsinin Avropa Birliyindən çıxmasının tərəfdarı olmayıb.

*Tereza Mey kimdir?*

T.Mey Oksford Universitetini bitirib. 2010-cu ildə bəri daxili işlər naziri olan xanım siyasətçi 1997-ci ildə millət vəkili seçilib.

1977-1983-cü illərdə İngiltərə Mərkəz Bankında çalışan Mey siyasətə 1986-cı ildə Merton bələdiyyəsində məclis üzvü kimi başlayıb. 1992-ci ildə keçirilən parlament seçkilərində və 1994-cü ildə keçirilən bələdiyyə seçkilərində uğur qazana bilməyən Mey 1999-cu ildə Mühafizəkarlar Partiyasının kölgə kabinetində təhsil naziri olub. O, 2002-ci ildə Mühafizəkarlar Partiyasının ilk qadın başçısı seçilib.

Tereza Mey özü də referendumdan öncə Britaniyanın AB-də qalmasının tərəfdarı olub.

Britaniyada yeni hökumətin Azərbaycan siyasətinə



mümkün təsirləri barəsində "Yeni Müsavat"a **Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Asim Mollazadə** danışıb. O bildirib ki, iki dövlət arasında bundan sonra da sıx əməkdaşlığın olacağını güman edir: "Düşünürəm ki, Britaniyada yeni qurulan hökumət Azərbaycanla münasibətləri daha da inkişaf etdirəcək. Ümumiyyətlə, Britaniya Azərbaycanın uzun illərdir ki, çox mühüm tərəfdaşıdır. Biz bir sıra istiqamətlərdə çox ciddi əməkdaşlıqlar edirik. Əminəm ki, yeni hökumətlə də bu münasibətlər yüksələn xətt üzrə inkişaf edəcək. Əslində bir məqamı da qeyd edək ki, Böyük Britaniyanın hakimiyyətində eyni partiya qalıb. Britaniya parlamentində çoxluq Mühafizəkar Partiyasındadır. Sadəcə olaraq referendumdan sonra baş nazir David Kemeron istefa verdi və hökumətdə cüzi dəyişikliklər edildi. Bunun da Azərbaycanla münasibətlərə bir təsiri olacağını düşünmürəm. Münasibətlərdə o halda əsaslı dəyişikliklər olardı ki, hakimiyyətdə başqa bir partiya gəlsin və hökumət formalaşdırsın. Lakin Britaniyada seçkilər keçirilmədi. Sadəcə olaraq, referendumdan sonra hökumətdə müəyyən dəyişikliklər edildi".

**A.Mollazadə bildirib ki, bundan sonra Böyük Britaniyanın taleyi hər bir halda müsbət olacaq:** "Britaniya çox böyük bir potensiala malik olan dövlətdir. Amerika Birləşmiş Ştatlarının ən yaxın müttəfiqidir. Bununla yanaşı, Britaniya Avropa Birliyi ölkələri ilə də öz əməkdaşlığını davam etdirir və etdirəcək. Dünyada da ümumi inkişafa öz müsbət təsirini göstərməyə çalışacaq. Azərbaycan enerji, siyasi və iqtisadi sahələrdə Britaniya ilə çox geniş əməkdaşlıq edir. Yeni hökumətə uğur arzu edirəm. Eyni zamanda onu nəzərə alaq ki, yeni hökumət Britaniya vətəndaşlarının iradəsini ifadə edir. Bu baxımdan hansısa ciddi bir dəyişikliyi gözləmirəm".

**Politoloq Qabil Hüseynli** isə hesab edir ki, Böyük Britaniyanın yeni hökumətinin ömrü uzun olmayacaq: "Buna görə də onların Azərbaycana qarşı siyasətlərində hər hansı bir dəyişikliyin olacağını düşünmürəm. Yeni hökumət vaxtı çatmış parlament seçkiləri nəticəsində formalaşmayıb. Bu səbəbdən də yaxın zamanlarda parlament seçkilərinin keçirilməsi və nəticədə yeni hökumətin formalaşması gündəmə gələcək. Yalnız bundan sonra həmin hökumətin siyasəti haqqında danışmaq olar. Britaniyada hazırda vəziyyət o dərəcədə ağırlaşıb ki, ölkə əhalisi sanki parçalanmış vəziyyətdədir. Hətta ölkə yenidən referendum keçirib, Avropa Birliyinə qayıtmaq haqqında da düşünür. Bunun üçün lazım olan 4 milyonluq petisiya da toplanıb. Ölkə bir tərəfdən Avropa Birliyindən çıxmağın yaratdığı problemlərdən çıxmağa çalışır, digər tərəfdən isə əhalinin təzyiqi qarşısında yeni referendumun keçirilməsi ilə bağlı məsələləri sahmana salmağa cəhd edir. Bu baxımdan da orada vəziyyət bir o qədər də yaxşı deyil".

❑ **Əli RAİS**

# Xəzərin hüquqi statusu "su altından" çıxmır

## Politoloq: "Arzu edək ki, Xəzər gələcəkdə əlavə problemlər mənbəyinə çevrilməsin"

**20 ildən artıqdır ki, Xəzər dənizinin hüquqi statusu ilə bağlı sahilyanı dövlətlər danışıqlar aparsalar da, nəticə əldə olunmur. 13 iyulda da Qazaxıstanın paytaxtı Astanada Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin görüşü keçirildi. Görüşə ümidlər və gözləntilər böyük idi. Hesab olunurdu ki, bu dəfə Xəzərin hüquqi statusu məsələsi həll olunacaq. Lakin gözlənənlər reallaşmadı...**

Görüşdən sonra açıqlama verən Rusiyanın xarici işlər naziri Sergey Lavrov ümidlərini 2017-ci ilə bağladı. Lavrov bildirib: "Biz çox faydalı iş apardıq və bəzi istiqamətlər üzrə irəlilədik. Bir neçə məsələ qalıb ki, onlar üzrə prezidentlərlə razılaşdırılmış prinsiplərin düzgün forması lazımdır. Hesab edirik ki, 2017-ci ilin birinci yarısında Konvensiya imzalana bilər".

İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif isə Xəzəryanı ölkələrə xüsusi mesajını verib. "İran Xəzərin dəniz sektorunun ədalətli bölünməsinin tərəfdarıdır. Başqa vacib məqam təhlükəsizlik məsələsidir. Dənizin sülh məqsədləri üçün istifadəsi, silahlanmadan imtina, hərbi gücün münasibətlərdə istifadə edilməməsi, təhdidlərə qarşı birgə mübarizə və digər elementlər regionda stabilliyi təmin edəcək. Xəzəryanı ölkələr Xəzər dənizinin dibindən istifadə edərək çirkləndirici məhsulların dünya bazarlarına nəqli zamanı diqqətli və həssas olmalıdırlar" - deyə, İranın xarici işlər naziri bildirib.



Ekspertlər bu mesajın xüsusilə də Bakıya ünvanlandığını bildirirlər:

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu bildirib ki, bu kimi problemlərdən iri dövlətlər əsasən bir-birilərinə qarşı istifadə edirlər: "Rusiya və İran başa düşürlər ki, Xəzər dənizində Qərb şirkətləri neft çıxarırlar. Qərbin transmilli korporasiyaları Xəzərdən neft çıxarmağa başlayanda nə Rusiya, nə də İranda suyun dibindən məhsuldarlıqla neft çıxarmaq üçün texnologiya yox idi. Həmin texnologiya Qərbin əlində idi və o da bu istiqamət üzrə öz işini gördü. Hazırda da ortaya ekologiya məsələsi atılıb və bu da söylədiyim faktorla əlaqəlidir. Rusiyanın mövqeyi budur ki, Xəzərin dibindən qaz kəməri çəkilməməlidir, iddia edirlər ki, bu, ekologiyanı korlayacaq. Ancaq halbuki, Rusiya özü Qara dənizin dibi ilə qaz kəməri aparır. Bəllidir ki, kimyasına görə Qara dənizin suyu ilə müqayisədə Xəzərdən keçən dəmir borular daha gec korroziyaya məruz qalır. Yeni məsələ söylənilənlərdən ibarət deyil. Bu kimi problemlərdən iri dövlətlər əsasən bir-birilərinə qarşı istifadə edirlər. İranın mövqeyində isə yeni bir hal müşahidə olunur. Belə ki, İran hal-hazırda çalışır ki, 4 müsəlman ölkələri birlik nümayiş etdirsinlər və Rusiya prosesdən bir qədər kənarlaşsın".

**Politoloq bildirib ki, ümumiyyətlə xəzəryanı ölkələri 3 qrupa bölmək olar:**

"Belə ki, Rusiya öz maraqlarına görə Qərbi və o cümlədən İranı sıxışdırmaq istəyir, İran Türkmənistana da müəyyən təzyiqlər göstərməklə çalışır ki, Xəzərdə öz marağını irəli sürsün. Sonuncusu isə Qazaxıstan və Azərbaycan çalışırlar ki, Xəzər mövzusunu siyasiləşdirmədən, hərbiləşdirmədən təbii ehtiyatlardan istifadə edib, gəlir əldə etsinlər. Bu baxımdan sonuncu görüşdə də Qazaxıstan və Azərbaycanın mövqeyi demək olar ki, üst-üstə düşdü. Xəzərin şimal sektorunun bölgüsündən Azərbaycan razılığını bildirib. Ümumiyyətlə, hesab edirəm ki, "Xəzər düyünü" yaxın zamanlarda açılmayacaq. Arzu edək ki, Xəzər gələcəkdə yeni əlavə problemlər mənbəyinə çevrilməsin. İndiki kimi qalsa da bizi qane edir".

**Politoloq hesab edir ki, İranın xarici işlər nazirinin çıxışındakı fikirlər əslində Azərbaycanı sevməyənlərin təxribatları da ola bilər:** "İran prezidenti Həsən Ruhaninin avqustun 8-də Azərbaycana səfəri gözlənilir. Ola bilər ki, bu məqamda belə bir mövqe nümayiş etdirməklə, bəzi qüvvələr Azərbaycandan sərt cavabın verilməsini istəyirlər. Həmin cavabı da sözsüz ki, İran prezidentinə təqdim edəcəklər. Çünki Həsən Ruhaninin Azərbaycanla münasibətləri çox yaxşıdır. O istəyir ki, normal, sivil münasibətlər çərçivəsində iki dövlətlər arasındakı əlaqələr inkişaf etsin. Ancaq qeyd etdiyim kimi İranda Azərbaycanla münasibətləri istəməyənlərin sayı hədsiz dərəcədə çoxdur. Vəziyyəti gərginləşdirmək üçün bəhanələr axtarırlar. Xüsusilə də iki dəfə belə bir hal olub ki, Ruhaninin aktiv fəaliyyəti dövründə bir dəstə adam Azərbaycanla bağlı olmayan yalanlar danışıblar. Hesab edirəm ki, İran xarici işlər nazirinin söylədiyi də mümkündür ki, prezidentin Azərbaycana səfərinə kölgə salmaq, vəziyyəti gərginləşdirmək xarakteri daşıyır".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016

**Böyük Britaniyanın nüfuzlu "The Daily Mail" nəşri ekspertlərə istinadən Azərbaycanda suyun insan səhhəti üçün təhlükəli olması ilə bağlı sensasion bir məlumatı ölkəmizdə səs-küyə səbəb olub.**

# Bakının içməli suyunun sirri- problem köhnə borulardır

## Ekoloq: "Gedin, su anbarlarına baxın, oradan analiz götürüb araşdırın görün ki, həmin su nə qədər təmizdir..."



Nəşr turistlər üçün hazırladığı xəritədə krandan su içməyin təhlükəli və təhlükəsiz olduğu ölkələrin adlarını qeyd edib. Nəşrin sorğu keçirdiyi ekspertlər bir sıra ölkələrlə yanaşı Azərbaycanı "üçüncü ölkələr" sırasına aid edib. "Bu cür ölkələrdə krandan gələn su ilə heç diş yumağı da tövsiyə etmirik" deyə, ekspertlər qeyd edib. Bunun ardından "Azərsu" ASC Böyük Britaniya nəşrinin Azərbaycan əhalisinə verilən suyun insan sağlamlığı üçün təhlükəli olması barədə yaydığı xəbərə münasibət bildirib. Açıqlamada qeyd edilib ki, bu xəbərin Azərbaycanla bağlı hissəsi həqiqəti əks etdirmir: "Azərsu" ASC olaraq bəyan edirik ki, bu gün paytaxt Bakının yerləşdiyi Abşeron yarımadası daxil olmaqla, Azərbaycanın əksər bölgələrində əhaliyə verilən içməli su qüvvədə olan standartlara uyğundur".

"Yeni Müsavat" qəzeti olaraq biz də bu məsələni araşdırmağa çalışdıq. Paytaxt əhalisi arasında keçirdiyimiz ümumi rəy sorğusundan məlum oldu ki, əhali mənzillərə verilən suyun keyfiyyətindən razı deyil. Bəziləri suyun paslı gəldiyini, bəziləri qaynadarkən dibində çöküntünün çox olduğunu bildirdilər. İçdikləri suda pis qoxunun gəldiyini bildirənlər də oldu. Məlum oldu ki, paytaxt əhalisinin əksəriyyəti içməli suyu mağazalardan və ya su sifarişi ilə məşğul olan şirkətlərdən alır.

Bundan əlavə, sosial şəbəkə istifadəçiləri arasında da sorğu keçirdik və insanlar birmənalı olaraq, suyun keyfiyyətindən razı olmadıqlarını bildirdilər. Qeyd etdilər ki, su kranının başına pambıq və ya salfet bağladıqda bir neçə dəqiqəyə onun qaraldığının şahidi olurlar. Bu isə sudakı çirkdən irəli gəlir. Su içərkən mədəsində narahatlıq yaşadığını bildirənlər də oldu.

Böyük Britaniya nəşrinin yazdığı iddialara münasibət bildirən **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məlumat Azərbaycan əleyhinə dezinformasiya ola bilər: "Mən düşünürəm ki, bu dezinformasiyadır. Çünki belə mövzularda bəzən Azərbaycanın əleyhinə məsələlər qaldırılır və ya pul qazanmaq üçün bu işlər görülür. Yəni burada iqtisadiyyatdan çox siyasətdir, Azərbaycanın əleyhinə olan kompaniyadır, məlumat isə dezinformasiyadır. Çünki 10 gün öncə "Azərsu" bütün qapılarını ictimai təşkilatların üzünə açdı. Mən və bir neçə nəfər gedib bütün su təmizləyici qurğulara baxdıq, insanların girməsi üçün qadağan olan yerlərə də xüsusi paltarlarla girib baxdıq. Mən Marseldə keçirilən Dünya Su Konqresində iştirak etmişəm. Orada 25 min insan iştirak edirdi. Mən orada xeyli bilgilər əldə etdim və həmin bilgilər əsasında "Azərsu"nun qurğularına baxış keçirdim. Qərara gəldim ki, Bakı şəhərinə verilən su kifayət qədər təmizlənir və müvafiq filtrlərdən keçirilir".

**Eyyub Hüseynov suda olan keyfiyyət pozuntularının səbəbini köhnəlmiş su xətlərində olduğunu qeyd etdi:** "İstehlakçıların müraciətləri var ki, su təmiz gəlmir, lilli gəlir. Bu o deməkdir ki, infrastruktur köhnəlib, yəni su xətləri qaydasında deyil. Digər tərəfdən əhali su resurslarından düzgün şəkildə istifadə etmir. Boruları əzirlər, deşirlər, mıx vururlar, kənar sular oraya qarışır, israfçılıqla istifadə edirlər. Biz bu yaxınlarda monitorinqlər aparmağa hazırlaşırıq. Həyətlərdə "Azərsu"nun su borularından su çəkib adını "Hacı bulağı", "Şəhid bulağı" qoyurlar və heç bir sayğacdan keçməyən su ilə guya ehsan verirlər. Bu anormal haldır, biz bu kimi halları araşdıracağıq. O cümlədən avtomobil yuma məntəqələrində də sudan israfçılıqla istifadə olunur. Bakıdan 100 kilometr aralıda Sabirabad rayonunda insanlar kanal suyundan içir. Suvarma sularının və bitkilərə vurulan dərmanların qarışdığı təhlükəli sudan içirlər. Bu sular əlbəttə pisdir və onunla diş fırçalamaq da olmaz. Lakin Bakı suyu təmizlənib verilir".

**Bakı sakinlərinin içməli suyu mağazalardan alması- na gəlincə, E.Hüseynov bildirdi ki, insanlarda krandan gələn suyun istifadəyə yararsız olması ilə bağlı bir düşüncə var və su şirkətləri də bundan istifadə edirlər:** "Belə ajiotaj yaradan informasiyaların ortaya çıxmasında su istehsalçılarının rolu böyükdür. İnsanların su haqqında bilgiləri azdır. Su Allahın möcüzəsidir və onun haqqında tam məlumat almaq mümkün də deyil. Suyun tərkibini tam öyrənmək üçün ən aşağısı 300 parametr üzrə araşdırılmalıdır. Yəni bu çox mürəkkəb bir şeydir. Mən bir mütəxəssis olaraq hesab edirəm ki, Azərbaycanda insanların evlərinə gələn su təmizlənmiş şəkildə verilir".

**Ekoloq Telman Zeynalov** da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, problem kommunikasiya xətlərindədir: "Su boruları 50-60 il bundan əvvəl quraşdırılıb, ondan sonra insanlar əlavə evlər tikib, hər dəfə o borulara müdaxilə olunub. Borular indiyə kimi paslanıb, əzilib və suyun içinə başqa nələrsə qarışıb, verilən su da həmin borularla gəlir. Ancaq siz gedin, su anbarlarına baxın, oradan analiz götürüb araşdırın görün ki, həmin su nə qədər təmizdir. Sadəcə, həmin su köhnə borularla yaşayış binalarına, mənzillərə verilir. O borular da köhnədir. Onları dəyişdirmək lazımdır. Problem yalnız borulardadır. Mən təsdiq edirəm ki, dövlətin apardığı su siyasəti yaxşıdır. Mən özüm də bütün rayonlarda su problemini araşdırıram. Bu regionların inkişaf planı çərçivəsində Dünya Bankının maliyyə dəstəyi ilə Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə həyata keçirilir. Mən suyu analiz eləməmiş içilməsinə icazə vermirəm. Bütün rayonlara suyu analiz edirəm və hansı rayonda keyfiyyəti normal deyilsə onu qadağan edirəm.

Bakı-Qəbələ-Oğuz su xətti çəkilsə də, oradan gələn su Bakı əhalisinin su ilə təminatı üçün yetərli deyil. Bakının əhalisinin suyu ilbəil artır. Onları su ilə təmin etmək lazımdır. Bundan əlavə mağazalar, şirkətlər suyu butulkalara doldurub satırlar. Yəni həm də kommersiya məqsədi ilə istifadə olunur. Mən Bakı-Qəbələ-Oğuz su kəməri çəkiləndə onun əleyhinə çıxdım. Çünki regionda 30-40 artezian quyusu qazıblar, o suları yerdən çıxarırlar, oradakı meşələr isə susuz qalıb quruyacaq. Qaş düzəldən yerdə vurub gözü çıxarırıq. Meşələr qurusa, su qıtlığı yaranacaq. Meşələr yağıntı yaradandır. O meşələr qırılacaqsa, ölkədə quraqlıq olacaq".

❑ **Nərgiz LİFTİYEVA**



# Qəbul imtahanlarına giriş pullu olacaq

## Etibar Əliyev: "Hesab edirəm ki, bu, valideynlərin büdcəsinə bir o qədər də ziyan vurmayacaq"

**İmtahan xərcləri dövlət büdcəsindən verilməyəcək, hər bir şəxs pulu özü ödəyəcək. Bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə "Trend"ə müsahibəsində deyib. M.Abbaszadə bir şəxsin imtahan verməsinin ona 25 manata başa gələcəyini bildirib: "Söhbət müxtəlif növ qəbul imtahanlarından, yəni bütün təhsil pillələrinə qəbul imtahanlarından gedir ki, onlar da pullu olmalıdırlar. Bundan başqa, müxtəlif növ sınaq imtahanları, dövlət qulluğuna qəbul imtahanları - bunlar hamısı yalnız dövlət rüsumu əsasında aparılır. İmtahanların keçirilməsi üçün hər bir şəxsə görə çəkilən xərc bizə dövlət büdcəsindən verilir. İndi isə verilməyəcək. Ona görə də hər bir şəxs pulu özü ödəyəcək. Müəyyən imtahanlarda dövlət bir şəxsə 25 manat pul xərcləyir. Ancaq elə imtahanlar var ki, bu xərc daha çoxdur. Bu, o imtahanlardır ki, orada iştirakçıların sayı az olur. Məsələn, kütləvi imtahanlarla müqayisədə rezidentura imtahanlarının keçirilməsinə daha çox pul xərclənir. Kütləvi imtahanlar olanda xərclənən pul iştirakçıların sayına görə bölünür, ona görə də xərclər bir az azalırdı. Amma elə də böyük imtahan olmayanda - iştirakçıların sayı 1000-2000 nəfər olanda xərclər təbii ki, artır. Biz indi bununla əlaqədar müəyyən arayışlar hazırlayırıq. Bu arayışları müəyyən bir sənəd kimi Tarif Şurasına təqdim etməliyik. Tarif Şurasında bu sənədlərə baxılmalıdır. Müəyyən imtahanlar dövlət hesabına aparılmalıdır. Bu, buraxılış imtahanlarıdır. Çünki buraxılış imtahanları yekun attestasiyadır və ölkədə 11 illik təhsil pulsuzdur. Təbii ki, attestasiya da pulsuz olmalıdır. Amma qalan imtahanlar pullu olmalıdır".**

**Təhsil naziri Mikayıl Cabbarov** isə Qəbul imtahanın dövlət büdcəsi yox, ödənişli olması şəklində qoyuluşu müzakirə edilməli mövzu olduğunu bildirib. Dövlət İmtahan Mərkəzinin təzə yaradılan müstəqil qurum, publik hüquqi şəxs olduğunu deyən nazir onun fəaliyyətinin həyata keçirilməsi üçün zəruri imkanların olmasının vacib olduğunu bildirib: "Təhsil alanlar nöqteyi-nəzərindən həmin xidmətlərin sifarişçisi kimi dövlət çıxış edir. Ona görə həmin xidmətlərin ödənişinin kim tərəfindən həyata keçirilməsi müzakirə olunacaq. Bu prosesin dövlət büdcəsi, təhsil büdcəsi və ya hansısa başqa mənbələr hesabına təmin edilməsi razılaşdırılacaq. Bu qərar Təhsil Nazirliyinə təklif olandan sonra biz öz mövqeyimizi rəsmi qaydada bildirəcəyik. Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təmin edilməsi üçün zəruri imkanlar olmasını anlayırıq. Lakin bunun buraxılış imtahanlarından sonra qəbul imtahanları verən abituriyentlər hesabına olunub-olunmaması sual doğurur. Təhsilə hər kəsə əlçatan olmalıdır".

*İmtahanların bundan sonra abituriyentin hesabına aparılması nə dərəcədə düzgündür?*

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev** bu məbləğin valideynlərin büdcəsinə o qədər də ziyan vurmayacağını dedi: "Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs hesab olunur. Dövlət İmtahan Mərkəzi yaradılarkən qeyd olundu ki, onun büdcəsi bir milyon manat olmalıdır. Bu quruma çox böyük, geniş səlahiyyətlər verilib. Dövlət İmtahan Mərkəzi yalnız tələbə qəbulunu həyata keçirmir. Dövlət qulluğuna qəbulu, buraxılış imtahanlarını, dərsliklərin monitorinqini həyata keçirir və sairə. Ona görə də hesab edirəm ki, bu kiçik vəsait iri bir qurumun saxlanılması üçün çox cüzi bir vəsaitdir. Məleykə xanım müsahibəsində qeyd edib ki, bir nəfər üçün bir imtahana 25 manat xərclənir. Bu, imtahanda iştirak edənlər üçün çox böyük vəsait hesab olunmamalıdır. Həqiqətən də Dövlət İmtahan Mərkəzi publik, hüquqi şəxs kimi bir neçə xidmətini ödənişli həyata keçirə bilər. Əgər valideynlər bir ay ərzində repetitıra yaxud da məktəbin bu və ya digər xərclərinə min manatdan çox vəsait xərcləyirlərsə, imtahanda iştirak üçün 25-50 manat vəsaitin xərclənməsi faciə sayılmamalıdır. Əlbəttə ki, qəbul prosesində iştirak etmək valideynlər və onların övladları üçün çox mühüm bir prosesdir. Mən hesab edirəm ki, hamı çox xoş münasibəti olduğu bu qurumun saxlanılması üçün maraqlı olmalıdır. Burada ştat cədvəlləri böyüyür, xidmətlərin sayı artır və sairə. Ona görə də bu xidmət 50 manatı ötməməlidir. Bu halda hesab edirəm ki, valideynlərin büdcəsinə bir o qədər də ziyan olmayacaq".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016




**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək dinimizin hədəfi - insanı, onun mövcudiyyət fəlsəfəsinə uyğun olaraq, kamil duruma yetişdirməkdir. Bu, insanda həqiqi dəyər inqilabını təcəssüm edən, insanı İNSAN pilləsinə yüksəldən bir məktəbdir. Allah Təala hər bir inanc insanına bu nemət bulağından bəhrələnməyi qismət etsin!**

# İblisi (lən) qorxudan 5 keyfiyyət

## Adəm övladının ən böyük düşməni kimlərə bata bilmir?



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

### Kimləri sevmir iblis?

Mübarək dinimiz daima insanın kamil olması üçün zəruri olan keyfiyyətləri çatdırır. İnsanı ayıldır dinimiz. Onun nədən çəkinməli, nələrə doğru getməli olmasını vurğulayır dinimiz. İblisin düşmənlərinin kim olmasını, lənətlik iblisin ardıcıllarının kim olmasını açıqlayır dinimiz. İmam Cəfər Sadiqdən (ə) nəql edirlər: «İblis dedi: «5 nəfər var ki, onlara qarşı heç bir çarəm yoxdur. Bunlar (1) xalis niyyətlə Allaha sığınan və bütün işlərində Ona arxalanan, (2) gecə-gündüz Allaha çox təsbih deyən, (3) özü üçün bəyəndiyi şeyi mömin qardaşına da bəyənən, (4) başına müsibət gələndə səbirsizlik etməyən, (5) Allahın ona qismət etdiyinə razı olan və ruzi qəmi çəkməyənlərdir. Ancaq, qalan bütün insanlar mənim ovcumun içindədir»».

Mübarək hədisdən bəlli olur ki, nələr, hansı keyfiyətlər insanı lənətlik iblisdən amanda saxlaya bilər, qoruya bilər və nələr insana xas olmadıqda, lənətlik iblisin təsiretmə imkanları artır. Fikir versək, burada insan mövcudiyyətinin müxtəlif cəhətləri açıqlanır. İlk olaraq, burada insanda niyyət xalisliyinin olması məsələsi işıqlandırılır. Və bu niyyət xalisliyinin tətbiqi yeri də bəlli edilir - Allaha pənah aparmaq, yalnız Ona arxalanmaq və təvəkkül etmək.

Sonra Allah Təalanı təsbih etmək, Onun mübarək adını zikr etməyə gəlir. Bu, insanı Allaha bağlayan, insana ən ümdə mövzuları xatırladan bir amildir.

Sonra özü üçün bəyəndiyini digərinə bəyənmək kimi çox mühüm əxlaqi keyfiyyətə toxunulur. Əslində bu, insanın rəftar formulu olmalıdır. Həqiqətdə «nə etməli?» düsturu olmalıdır bu müddəa insan üçün.

### İnsan imtahanlar müqabilində

İnsanın həyatında müxtəlif mərhələlər olur. O cümlədən, imtahanlar, sınaqlar, çətinliklər də üz verir insana. Bu məqamda insan özünü itirməməli, panikaya düşüb səhvlər buraxmamalıdır. Hər vəziyyətə düşə bilər insan. Amma dəyanətlə, şərəflə verməlidir öz imtahanlarını. Ruhdan düşməməlidir insan.

Hədisdə göstərilən növbəti məqam - insanın bütün çətinlikləri səbir və dözümlə qarşılaması ilə əlaqədardır. İnsanın necə qarşılamasından asılı olmayaraq, onsuz da imtahanlar üz verəcəkdir. Dözüm və səbirlə qarşılasa, ruhu inkişaf edəcək, zənginləşəcək insanın. Amma imtahanlar müqabilində insan özünü itirəcəksə, ruhdan düşüb pessimizmə qapılacaqsa - itirəcəyi özünə qalacaq. İmtahanın da çətinliyini çəkəcək, üstəlik ruhuna də zərbə vuracaq.

Sonra hədisdə ruziyə qane olmaq təqdir edilir. Ruzi dərdi çəkməməlidir insan. Amma bu, qətiyyən aza yönəldilmək kimi başa düşülməməlidir. Az işləməyin, az qazanmağın təşviqi kimi qiymətləndirilməməlidir. Söhbət ondan gedir ki, insan halal ruzi əldə etmək üçün çalışmalı, ondan nə asılıdırsa - etməli və bundan sonra əlinə gələn qismətə qane olmalıdır. Çalışdıqdan, səy etdikdən sonra əldə etdiyi imkan müqabilində daxili razılıq hissinə malik olmalıdır. Özgənin malına, varidatına göz dikməməlidir. Nəfsinin ardınca gedib, özünü zillətə salmamalıdır. İmkansızlıq üz verəndə - əgər özündən nə asılıdırsa, edibsə - səbirsizlik və kəmhövsələlik etməməlidir.

Gördüyümüz kimi, burada insanın həm Allahla münasibəti, həm də fərdi, ictimai baxımdan həyat və məişəti əhatə olunmuşdur. Burada insanın üzləşdiyi hadisələrlə bağlı rəftarlarını tənzimləyən məqamlara toxunulmuşdur. Lənətlik şeytanın dilindən insana təhlükəli yerlər bəlli edilir. Yəni, bu məkanlarda, bu mənəvi mövzularda insanın vücudi durumu axsayırsa, özünü təhlükəyə salmış olur.

### Müəyyənedici niyyətlər

Sadalanan bu keyfiyyətləri bir qədər də müfəssəl araşdıraq. İnsanın niyyətində xalislik olmadıqda, niyyətlər tam olaraq Allaha doğru yönəlmədikdə, niyyətdə qarışıq olduqda, təmizlik, dürüstlük, paklıq olmadıqda - meydana iblis daxil olur. Əgər insanın bütün işlərdə Allaha sığınmaq, təvəkkül etməsi yoxdursa, özünə, mənsəbinə, vəzifə sahiblərinə arxayın olarsa - burada şeytan lənətliyin qəlbə girməsinə geniş imkan yaranır.

Allahı yada salmağa, zikr etməyə gəldikdə, nə vaxt iblisin insanı ram etmək fürsətləri artır? Əlbəttə ki, insan Allahı unutduqda. İnsanın gün ərzində bir proqramı, tənzimlənməsi olmalıdır ki, Allahı bacardığı qədər çox xatırlasın. Bu, öz-özünə olan bir məsələ deyil, iradəvi, şüurlu prosesdir. İnsan, Allahı unutmamaq üçün, bacardığı qədər çox xatırlamaq üçün öz fərdi xüsusiyyətlərinə uyğun olaraq müvafiq proqram qurmalıdır. İnsan Allahı unutduqda, iblisin təsir dairəsinə düşür.

Özü üçün bəyəndiyi şeyi digəri üçün bəyənmək - günümüzün ən aktual mövzularındandır. Çox təəssüflər olsun ki, heç də həmişə doğru yolun yolçularının kəmiyyət artımı avtomatik olaraq keyfiyyətin müvafiq surətdə artması ilə müşayiət olunmur. Və o da qeyd olunmalıdır ki, «yalnız özün üçün bəyəndiyini başqasına da bəyən» formulu toplumda arzu olunan səviyyədə yaşanmır. Əfsus ki, insanlar arasındakı mövcud rəftarda daha çox digər prinsip - şəxsi marağı hər şeydən üstün tutmaq prinsipi rəhbər rolu oynayır. Unudulur ki, bu kimi azmalara qol qoymaq - könüllü olaraq iblisin təsir radiusuna daxil olmağa bərabərdir.

Ruzi imtahınında səbirsizlik etməyə gəldikdə, bu, iblisin ən çox sevdiyi mövzudur. Məhz burada lənətlik iblis üçün geniş fəaliyyət üfüqləri açılır. İnsanın gündəlik problemlemləri içərisində ruzi problemi - ən çox rast gəlinən və davamlı xarakterlidir. Və insanın həyatının və məişətinin fizioloji baxımdan ən zəruri nöqtələrinə təsir etdiyindən, burada səbir etmək nə qədər mübarək duruma səbəb olursa, səbirsizlik də bir o qədər ruhi zillətə gətirib çıxara bilir.

Diqqət yetirsək, mübarək hədisdə iblis öz ruhi durumu üçün müvafiq müdafiə mexanizmlərini təmin etməyən, zəruri keyfiyyətlərə malik olmayan insanların onun «ovcunun içində» olmasını, yəni, tam surətdə öz iradələrini ona tabe etdirmələrini vurğulayır. Bu, ayıldıcı bir xəbər olmalı, hər bir insan öz vəziyyətini mütəmadi təftiş edərək, islahı üçün qərar verməlidir.

### İblisin ardınca gedənlərin aqibəti

İblisin ardınca getməyin acı perspektivləri barədə dinimiz hər zaman insanı xəbərdar etmişdir. Həzrət Əli (ə), şeytanın ardınca gedənləri məzəmmət edərək, buyurmuşdur: «Onlar şeytanı öz işlərinin meyarı etdilər və şeytan da onları öz tələsinə çevirdi. Beləliklə, (şeytan) onların qəlblərində yumurta saldı, cücə çıxartdı, tədricən ağıllarına nüfuz etdi, onları xətalara və büdrəmələrə düçar etdi, batili gözlərində bəzədi. Onların işləri, güclərində şeytanın şərik olduğu və onun dili ilə batil söz danışan şəxslərin işi kimidir».

İnsanlar arasında bir balaca araşdırma aparsaq, onların işlərinin qayəsi barədə xəbər alsaq, məlum olar ki, bir çoxunun işinin meyarı məhz şeytani səciyyə daşıyır. Onların işləri Allaha tərəf ünvanlanmayıb, nəfsani qərizələrə yüklənib. Bu, həm fərdi müstəvidə, həm ailə müstəvisində, həm iqtisadi, ictimai müstəvilərdə yer alan bir haldır.

Ümumiyyətlə, insanın «kim»liyi, onun meyarlarının Inecə»liyindən bilavasitə asılıdır. Bir kəsin ki, meyarı şeytandır, onun işləri də şeytani olcaqdır. İş o yerə çatır ki, insan artıq şeytanın tələsinə çevrilir, onun işini görür. Hərə bir vəziyyətdə, rəngdə, xüsusiyyətdə bu rolu yerinə yetirə bilər, əgər özünün meyarlarına diqqət etməsə.

Bunlar - hansısa mücərrəd mövzular deyil. Bir də görürsən bir kəs əqli, zəkanı, əqidəsini, öz dünyagörüşünü, ən nəhayət - ənənəni, ağsaqqal sözünü qoyur bir kənara, müxtəlif iblisvari düşüncə sahiblərinin rəyi ilə durub-oturur. Soruşanda da məlum olur ki, standartları dəyişmişdir.

Hədisdə o da vurğulanır ki, iblis insanın ağlına nüfuz etdikdən sonra, günaha sövq edir və buna, pisi yaxşı kimi göstərməklə nal olur. Məsələ onunla sonuclanır ki, bu insanın dili - iblisin dilinə, gözü - iblisin gözünə, gücü - iblisin gücünə çevrilir. Yəni, bu insanın qəlbi şeytanın eyninə çevrilir. Bu, nə üçün baş verir? Çünki, bu kimi insanların meyarı - iblisdir. Hər şey meyarlardan başlayır.

### İblis insana necə nüfuz edir?

İnsan öz düşmənini tanımasa, ondan qoruna bilməz. Əmirəlmöminin İmam Əli (ə) buyurur: «Gizlincə qəlblərə nüfuz edən və asta-asta qulaqlara ovsun oxuyan düşməndən çəkinin».

Həzrət Əli (ə) insanın ən böyük düşməni olan iblisin xüsusiyyətlərini açır. İblis səs-küylə, təm-təraqla gəlib girmir insanın qəlbinə. Ahəstə-ahəstə, günahın rəngini dəyişməklə, haramları adiləşdirməklə, sonra kiçik günahlara mürtəkib olunmağa təşviq etməklə, sonra artıq öz günahlarını da adiləşdirib kiçiltməklə insanı əla ala bilir iblis.

Bunlar da abstrakt mövzular deyildir. Elə ətrafa diqqət etsək, görərik ki, internet, televiziya, radio, nəşrlər - bütün bunlar çoxları üçün bilgi artırmaq, elmlənmək vasitəsi deyil. Əksinə, ruhani səfalət çirkabına mürtəkib olmaq, öz aqibətini pisləşdirmək üçün bir vasitədir. Şeytanın dominantlığını, təsir artımını müşahidə edirik biz bir çox sahələrdə.

Qeyd olunduğu kimi, tədricən nüfuz edir qəlbə iblisvari mahiyyət. Baxırsan, normal bir insandır. Hər gün bir az haramdan yeyə-yeyə, nəhayət cismini öyrəşdirir harama və hətta özgə haqqını qəsb etmək də adiləşir onun üçün. Buna görə də ən namuslu, vicdanlı insanlar belə, öz mühitlərinə diqqət etməlidirlər. Mühit barədə səhlənkarlıq edən insan, nəticədə gedib elə bir mənəvi zillətə düşər ki, çarə tapa bilməz. Toplumda nə qədər şey var ki, 15-20 il bundan əvvəl heç kim təsəvvür edə bilməzdi bunu millətimiz üçün. İzləsək, görərik ki, asta-asta sırınıb bütün bu anti-dəyərlər toplumumuza. Nəticədə iş o yerə çatır ki, namus, qeyrət, din, əxlaq kimi dəyərlər barədə danışmaq belə çətinləşir - o qədər vecsizlik yaranıb bu kateqoriyalara qarşı.

Lənətlik iblisin toruna düşməmək üçün, nəfsani istəklərə qapılmamaq üçün insan Allaha pənah aparmalı, ona üz verən nəcib işlərə görə şükür-nemətli olmalıdır. Həzrət Əlidən (ə) nəql edirlər: «Allaha həmd edirəm şeytanın qovulması və uzaqlaşdırılmasına görə. Eləcə də onun tələ və hiylələrindən salamat qalmağa səbəb olan işlərdə Allahdan kömək istəyirəm».

Allah Təala hər bir bəndəsinə irili-xırdalı iblislərlə mübarizədə kömək olsun, inşəallah!

### Vəsvəsənin əlacı

İblisin insana nüfuz etməsinin müxtəlif vasitələri vardır. Təəssüflər olsun ki, bu baxımdan günümüzdə aktuallıq kəsb edən mövzulardan biri də vasvasılıqla bağlıdır. İnsanı mənasız işlərlə məşğul edib, lazımlı işlərdən yayındırmaq - iblisin nailiyyətlərindəndir. Əslində vasvasılıq - bir xəstəlikdir. İslamın nəzərində bu, ciddi ruhi mərəz və ümumilikdə xeyli problematik bir hal hesab edilir. Dinimiz təmizliyi sevir və «Təmizlik - imandandır» deyə buyurur. Amma bir insanın halı ki, saatlarla əllərini yuyur, yaxud çimir ki, bəs Itəmiz olmadım», yaxud əlinə parça keçirib qapı-pəncərəni açır ki, birdən natəmiz olar, yaxud dəfələrlə dəstəmaz alır ki, bəs «deyəsən pozuldu», yaxud namazı neçə dəfə qılır ki, «deyəsən alınmadı» - bu kimi işlər iblisin qəlbə girib vəsvəsə salmasının nəticəsidir.

Dinimiz bunları əqlin kənara qoyulmasının, hərəkətlərin əqlani müstəvidən kənara çıxarılmasının məhsulu kimi qiymətləndirir. Nəql edirlər ki, bir gün İmam Cəfər Sadiqin (ə) yanında dəstəmaz və namazda vasvası bir kişinin adını çəkərək, onun ağıllı bir şəxs olmasını iddia edərkən, Həzrət (ə) buyurdu: «Şeytana tabe olanın nə ağlı ola bilər?». Soruşdular: «Şeytana necə tabe olur?». Buyurdu: «Ondan soruş, gör, onu vəsvəsə edən şey nədir? O, mütləq deyəcəkdir ki, şeytanın işidir».

Mübarək hədisdə ayıldıcı məqam vardır: ey insan, əgər şeytan vəsvəsə edirsə, nə üçün ona tabe olursan?! Özünü toparla, etina etmə vəsvəsələrə. Çünki, bu işlərin nə İslama, nə möminliyə aidiyyəti yoxdur. İslam - elm və məntiq, rasionallıq üzərində bərəqərar olan bir təlimdir və iblis lənətliyin işi isə insanı müvazinətdən çıxarmaq, onun gününü qara etmək, səbir və hövsələsini daraltmaqdan ibarətdir. Birini pulla, birini məqamla, birini vəzifə ilə, birini region, kənd-şəhər təəssübü ilə aldadar iblis. Birini dərisinin rəngi ilə, digərini «dəbə uyğundur» adı ilə bir qrup insanın illik xərcini bir paltara verdirməklə, üçüncünü - başqa bir israfla çaşdırır, azdırır iblis. Amma bunların arasında bəlkə də ən xəlvət çaşdırma - təmizlik və s. ilə bağlı qəlbə vəsvəsə salmaqla bağlıdır. «Sən təmizkarsan, camaat səni başa düşmür» - deyə zavallının qəlbinə vəsvəsə salıb, işini-gücünü atdırıb, qiymətli vaxtını saatlarla təmizlik prosedurlarına sərf etməklə keçirtdirir.

Dinimiz vəsvəsədən ən effektli müalicələrdən biri kimi, Allahın birliyinə şəhadət verməyi görür. İmam Cəfər Sadiqdən (ə) nəql edirlər ki, vəsvəsə barəsində buyurmuşdur: «Eybi yoxdur, «Lə iləhə illəllah» de!».

Yəni, insan səmimi qəlbdən Allaha bağlansa, iblisin heç bir vəsvəsəsi ona təsir edə bilməz. İnsan gerçəkliklə, əqllə olsa, vəsvəsədən mütləq qurtular. Vəsvəsə - bir şeytani məsələdir və Allah Təala cəmi insanlara lütf etsin bu məsələlərdən qurtulmağa!

Allahım, bizləri iblisin bata bilmədiyi keyfiyyətlərə malik olanlardan, Sənə pənah aparanlardan, əqli rəhbər tutanlardan, vəsvəsədən uzaq olanlardan qərar ver!

Allahım, cəmi iman əhlini İmam Hüseyn (ə) əzadarlarından, Həzrət Peyğəmbər (s) və Əhli-beytinin (ə) yolunu gedənlərdən qərar ver!

Allahım, qəsb olunmuş torpaqların, ibadətgahların tezliklə qəsbdən qurtulmasını, 12-ci İmam Həzrət Mehdi Sahib əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!

YENİ MÜSAVAT
N 152 (6473) 15 iyul 2016

# Suriyadan qayıdan azərbaycanlılardan ilginc məhkəmə etirafları

## "Müsəlmanlara kömək üçün getmişdik, amma gördüklərimizdən qorxduq..."



**İyulun 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada qanunsuz silahlı birləşmələrin tərkibində döyüşməkdə ittiham olunan Xaçmaz rayon sakini, 1988-ci il təvəllüdlü Anar Mahmudov və Şamaxı rayon sakini 1980-ci il təvəllüdlü Elvin Əsgərovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Musavat.com-un məhkəmə prosesində iştirak müxbiri xəbər verir ki, hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. İttiham aktında qeyd edilir ki, Anar Mahmudov və Elvin Əsgərov terror təşkilatı kimi tanınan "Cəbhət ən Nusra" adlı cinayət birliyinin tərkibinə daxil olan "Cumdul Xəlifə" qruplaşmasının fəaliyyətində dini düşmənçilik zəminində hökumət əleyhinə döyüşlərdə iştirak ediblər.

"Həm Azərbaycan, həm də Suriya qanunvericiliyinə əsasən, cinayət sayılan bu əməllərə hər iki şəxs xarici dövlətdə məhkum edilməyiblər" - deyə ittiham aktında qeyd edilir.

Anar Mahmudov ona elan olunmuş ittihama münasibət bildirərkən özünü təqsirli bildiyini və ifadəsində 2009-cu ildən etibarən İslam dininin sünni təriqətinin sələfi qolu üzrə etiqad etdiyini söyləyib: "Mən internet vasitəsilə Suriyada gedən proseslərdən məlumat izləyirdim. Suriyada yaşayan müsəlmanlara əziyyət verildiyini görürdüm. Bu məqsədlə Xaçmazdan olan uşaqlarla əlaqə saxladım, Suriyaya getmək istədiyimi dedim. Türkiyədə yaşayan Xalid adlı şəxsin nömrəsini verdilər. Onun əlaqələri ilə Türkiyəyə getdim".

**2013-cü ilin fevralında Gürcüstana, oradan Türkiyəyə getdiyini söyləyən A.Mahmudov qaçaq yolla Suriyaya gedib çıxmasında danışıb:** "Xalidlə danışdım. Qaçaq yolla məni Suriyaya keçirdi. Orada məni ləqəbi "Abu Hafs" olan İntiqam Əliyev qarşıladı. Onun rəhbərlik etdiyi "Cumdul Xəlifə" dəstəsinə qoşuldum. Amma ona biyət etmədim".

**Qoşulduğu dəstədə 10-12 nəfər olduğunu, 5 ay onlarla birlikdə qaldığını və posta çıxdığını, təlim keçmədiyini və qanlı döyüşlərdə iştirak etmədiyini bildirib. O, Suriyada olarkən necə yaralandığını belə danışıb:** "Postda olanda qarşı tərəfin hücumu zamanı ayağımdan yaralandım. 4 gün xəstəxanada yatdım. Əməliyyat olunandan sonra bunlardan qorxmağa başladım. Və Azərbaycana qayıtdım".

**Suriyaya getdiyinə görə peşman olduğunu deyən A.Mahmudovun ifadəsində ora getdiyinə görə pul almadığını söyləyib. Əqidəsini əsas gətirərək Suriyaya getdiyini deyən təqsirləndirilən şəxs orada xeyli azərbaycanlılar gördüyünü söyləyib**: "Elvini bir neçə gün ərzində görmüşəm. Onun döyüşlərə, təlimlərə getdiyini görməmişəm. Elvin ailəsini gətirəcəyini deyirdi. Azərbaycana getdi. Nə burda, nə də Suriyada heç bir cinayət əməli törətməmişəm". Əməlinə görə peşmançılığını təkrar dilinə gətirən A.Mahmudov Qarabağda müharibə başlayarsa ora gedəcəyini də söyləyib.

**Təqsirləndirilən Elvin Əsgərov isə ittihamlarla razılaşmadığını deyib.**

"Mən Suriyada idim. Amma "Cəbhət Ən Nusra"nın tərkibində olmamışam. 2012-ci ildən İslam dininin sünni təriqətinin sələfi qolu üzrə ibadət edirəm. Müsəlmanlara kömək etmək məqsədi ilə getmişəm. Cihada qoşulmaq istəyirdim. 2013-cü ilin fevralında evdən 300 dollar götürüb Türkiyəyə, sonra Suriyanın Artma şəhərinə getdim. "Abu Hafs"ın rəhbərlik etdiyi dəstəyə qatıldım", - deyə E.Əsgərov ifadəsində qeyd edib.

Suriyaya axın olduğunu deyən E.Əsgərov orada bir həftə olduğunu, heç bir döyüşdə iştirak etmədiyini söyləyib.

**E.Əsgərov deyib ki, Suriyada olduğu müddətdə "Abu Hafs"a beyət etməyib**: "Allah şahiddir ki, mən yalan danışmıram, əqidəmə ziddir. Suriyaya döyüşmək üçün gələnlər də vardı, hicrət edənlər də, yaşamaq üçün gələnlər də. Ailə üzvlərimə, qardaşıma işləməyə getdiyimi demişdim. Onlar Suriyaya gedəcəyimi bilmirdilər. Ailəmi, azyaşlı uşaqlarımı Allah ümidinə qoyub getdim. Həlak olsaydım "əlhəmdülillah" öləcəkdim, bu niyyətlə getmişdim. Mən peyğəmbər (s.ə.s) yolu ilə gedənlərdənəm. Orada bir-birrinə qarşı döyüşdüklərini gördüm, geri dönmək istədim".

Sonra qoşulduğu "Abu Hafs"ın dəstəsinin döyüş əməliyyatlarına aparıldığını eşidən E.Əsgərov onlara biyət etmədiyini və gördüklərindən təşvişə düşərək martın 13-də Azərbaycana qayıtdığını deyib.

**Məhkəmə prosesi iyulun 25-də davam etdiriləcək.**

❑ **İlkin MURADOV**



## Yanan binaya görə tutulanlardan biri öldü

**Keçən il Bakı şəhərinin Xətai rayonunda çoxmərtəbəli yaşayış binasında baş vermiş yanğına görə həbs edilmiş vəzifəli şəxslərdən biri həbsxanada vəfat edib. Musavat.com-un əldə etdiyi məlumata görə, ötən ilin aprelin 10-da Bakı şəhəri, Xətai rayonu, Zığ yolu küçəsi 16 saylı ünvanda baş vermiş yanğınla bağlı həbs edilən və Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham olunan 1963-cü il təvəllüdlü Muxtarov Nüsrət Əli oğlu Bakı İstintaq Təcridxanasında qəfil vəfat edib. Bildirilir ki, o, ürək tutmasından dünyasını dəyişib.**

Qeyd edək ki, məlum yanğın faktı üzrə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. "TNH" şirkətinin fəaliyyətinə və görülən işlərə faktiki rəhbərliyi həyata keçirən Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov barəsində Nəsimi rayon Məhkəməsi istintaq müddəti üçün 4 aylıq həbs-qətimkan tədbiri seçib.

Bir müddət əvvəl istintaqı tamamlanan cinayət işi üzrə məhkəmə prosesi davam etdirilirdi.

## Daşkəsəndə bədbəxt hadisə - 15 yaşlı qız intihar etdi

**Daşkəsən rayonunda intihar hadisəsi baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, rayonun Bayan kənd sakini 2001-ci il təvəllüdlü Lalə Bağırova yaşadığı evdə özünü asaraq intihar edib. Onun hansı səbəbdən intihar etdiyi hələlik məlum deyil. Faktla bağlı Daşkəsən rayon Prokurorluğunda araşdırma aparılır.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Çaplıqin Valentin Vladimiroviçə məxsus Bakı şəhəri, Xətai rayonu Cavanşir küçəsi ev 7 mənzil 6 ünvanına aid verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
Son səhifə
N 152 (6473) 15 iyul 2016

# Çox yatanlar tez ölür?

**Uorika Universitetində aparılan araşdırmaya əsasən, 8 saatdan çox yatan yetkin şəxslərin daha erkən ölmək riskləri daha çoxdur.**



9 və daha çox saat yatmağı sevənlərin ölmək riski 7-8 saat yatanlara nisbətən 30% daha çoxdur. Bunu 10 il ərzində milyondan çox insanın yatmaq davranışını izləyən araşdırma nəticəsində Uorika Universitetinin elmi araşdırma işçiləri deyir.

6 saatdan az yatanlar da risk qrupuna düşürlər - onların da normal yatanlarla nisbətdə ölmə riski 12% daha çoxdur. Çox yatmağı sevənlər tez tez diabetə və depressiyaya tutulurlar, həmçinin ürək-damar sistemlərində tez-tez problemlər müşahidə olunur. Az yatmaq da ölümü tezləşdirən xəstəliklərə gətirib çıxarır.

Uorika Universitetinin professoru Franko Kappuççionun nəticəsinə görə, optimal yatmaq müddəti 7-8 saat olmalıdır. Həmçinin Massaçusets universitetinin professoru Dr. Ceykobsun araşdırmasında da ən uyğun yatmaq müddəti 7 saat kimi göstərilir.

## Çində 24 milyon insan internetdən asılıdır

**Çinin paytaxtı Pekindəki İnternet Asılılığından Müalicə Mərkəzi *(Daxing Internet Addiction Treatment Centre, IATC)* internetdən asılı duruma düşərək "şəbəkə qulları"na çevrilmiş insanların müalicəsi il məşğul olur. 2006-cı ildə fəaliyyətə başlamış bu mərkəzdə hazırda 6 min pasiyent var. Hərbi təlim düşərgəsinə bənzəyən İATC rəhbərliyinin dediyinə görə, buradakı pasiyentlərin 75 faizi internet asılılığı sindromundan müalicə olunub. Hazırda 632 milyon internet istifadəçisi olan Çində ən azı 24 milyon nəfərdə internet asılılığı sindromu olduğu bildirilir.**



## Tailandda sərxoş sürücülər morqa salınacaq

**Tailand Krallığında hökumət sərxoş vəziyyətdə avtomobil idarə edən şəxslərə morqda işləmək cəzası verməyi planlaşdırır. Hər gün artan avtomobil qəzaları və spirtli içki qəbul edib sükan arxasına oturan sürücülərə qarşı tədbir almaq istəyən Tailand hökuməti son çarə olaraq bu yola əl atıb. Belə ki, sərxoş olduğu müəyyən edilən sürücülər xəstəxanaların morqunda çalışacaq.**

Qeyd edək ki, Tailandda hər il su bayramı ərəfəsində minlərlə qəza meydana gəlir və bu qəzaların böyük bir qisminə sərxoş sürücülər səbəb olur. "7 təhükəli gün" olaraq qəbul edilən bayram tətilində hər saatdan bir 2 nəfər ölür və 160 nəfər yaralanır.

# Ruh bədəndən çıxanda... şəklini çəkdilər

**ABŞ-da çəkilmiş iki foto sosial şəbəkələrdə geniş müzakirə olunur. Bu fotolar heyrət və təəccüb doğurur.**

Milli.az ABC-yə istinadən bildirir ki, olay ABŞ-ın Kentukki ştatındakı Pauell Kaunti rayonunda yaşanıb. Fotoları həmin an hadisə yerindən keçən yük maşınının sürücüsü Sol Vaskes çəkib.

Vaskes "Facebook"dakı profilində yazıb ki, "Bert T Combs Mountain Parkway" yolunda olarkən minik avtomobilinin vurub kənara atdığı motosikletin sürücüsünün can verdiyini görüb.

"O, bir qədər xırıldadı, sonra keçindi. Həmin an vücuddan qəribə buludun çıxdığını gördüm. Həmin bulud sanki insan ruhu idi", - Vaskes yazıb.

Vaskesin çəkdiyi fotolardan birində yol kənarındakı cəsədin üzərində gerçəkdən də sanki ruh təki substansiya görünür.



## Evləndikləri gecə... biri öldü, o biri türməyə getdi

**Bu günlərdə Rusiyanın Volqoqrad vilayətində bəy toydan dərhal sonra gəlini xəyanətdə ittiham edərək yandırıb. 27 yaşlı qadını yanıq xəsarətləri ilə xəstəxanaya yerləşdiriblər. Onun bədəninin 80%-i yanıb. Həkimlər onu xilas edə bilməyiblər. Polis artıq hadisəni araşdırır. Hadisəni törədən şəxs saxlanılıb. 30 yaşlı kişi əvvəllər də qətlə görə cəza çəkib. Toy gecəsində kişi həyat yoldaşının ona xəyanət etdiyindən şübhələnib. Gəlinin üzərinə spirt tökərək yandırıb. Rusiya mətbuatının yazdığına görə, toydan dərhal sonra sərxoş vəziyyətdə olan bəy yatıb. Bəyin bu hərəkəti yeni gəlinin xoşuna gəlməyib. Bu səbəbdən də gecəni başqa bir kişinin yanında keçirib. Geri qayıdanda isə hər şeyi ərinə danışıb. Baş vermiş xəyanət isə yuxudan ayılan əri qəzəbləndirib.**




**QOÇ** - Qarşınızda böyük perspektivlər durur. Hansı addım atacağınızdan asılı olan gələcək situasiyalar məsuliyyət hissinizi də artırmalıdır. Ağlınız kəsməyən işlərə ciddi yanaşmayın.

**BUĞA** - İstirahət haqqında düşünməyin. Çünki indiki məqamda bütün perspektivləriniz aktivliyinizdən asılıdır. Qarşıdakı həftədə görəcəyiniz işləri indidən planlaşdırın. Maraqlı görüşlər də labüddür.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvim sizin üçün o qədər də rəngarəng keçməyəcək. Yaxın olduğunuz şəxslərlə münaqişəniz gözlənilir. Fəaliyyətdə də xoşagəlməzliklər mümkündür. Odur ki, tədbirli olun.

**XƏRÇƏNG** - Hər mənada əhəmiyyətli gündür. Bir tərəfdən çoxdan görmədiyiniz adamlarla rastlaşmağınız, digər tərəfdənsə qarşılıqlı münasibətlərdə rəvan davranışlar sizə rahatlıq bəxş edəcək.

**ŞİR** - Əksər sahələrdə sevindirici hadisələrlə rastlaşma ehtimalınız var. Lakin bu, maliyyə məsələləri ilə bağlı olmayacaq. Hər halda ovqatınıza mənfi təsir göstərən amil gözlənilmir.

**QIZ** - Bəzi cəhdləriniz uğursuzluqla nəticələnsə də, buna görə qəmlənməyə dəyməz. Çünki Göy qübbəsi nahardan sonra sizə gözlənilməz sevinc bəxş edəcək. İşdə uğurlarınız da mümkündür.

**TƏRƏZİ** - Əsas enerjinizi sevgi münasibətlərinə yönəldin. Çünki yeganə uğurunuz bu sahə ilə bağlı olacaq. Fəaliyyət zəminində isə hansısa irəliləyişi gözləməyə dəyməz. Yalan danışmayın.

**ƏQRƏB** - Astroloji göstəricilər saat 18-ə qədər uğurlu məqamlar yaşayacağınızı bəyan edir. Sonrakı müddəti isə neytral şəkildə başa vurun. Bu gün varlanma ehtimalınız böyükdür.

**OXATAN** - Yaxşı olar ki, ağır fiziki işlərə ara verəsiniz. Əsas gücünüzü diplomatik görüşlərə həsr edin. Mənfi enerjili Ay saat 13:14-dən bürcünüzdə qərar tutduğu üçün daha diqqətli olun, xüsusən də səhhətlə bağlı.

**OĞLAQ** - Ciddi sınaqlarla baş-başa qaldığınızı nəzərə alan ulduzlar hər hansı riskin yolverilməz olduğunu vurğulayır. Qərar çıxararkən mövcud vəziyyəti və imkanlarınızı gözönünə gətirin.

**SUTÖKƏN** - Bu gün sizə mütləq kimsə kənardan dəstək verməlidir. Yoxsa passivliyiniz aradan qalxmayacaq. Pulla bağlı problemlərinizin həllinə çalışın. İctimai yerlərdə az görünün.

**BALIQLAR** - Ağır fiziki işlərə bir qədər ara verməyiniz tələb olunur. Əks təqdirdə səhhətinizdə mənfi fəsadlar baş qaldıra bilər. Nahardan sonra şəxsi büdcənizi artırmaq üçün imkanlar qazanacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnstaqram 10 ayda 250 min dollar qazandırdı



**Avstraliyanın Sidney şəhər sakini İnstaqramda şəxsi hesab açdığı ilk 10 ayda 250 min dollar qazanıb. Lenta.ru saytının xəbərinə görə, o, sözügedən şəbəkədə şəxsən hazırladığı bikini və digər məhsulları reklam edirmiş. 21 yaşlı Nina Perera universiteti bitirəndən sonra şəxsi işini qurmaq istəyib. Avstraliyalı qız daha öncə ofisiant olaraq çalışıb. Ondan bir il sonra isə "Neon Model Management" adlı agentlik açıb. Bu agentlikdə 120 model və 200 bloqqer çalışıb. Manekenlər arasında yer alan Qabbi Epşteynin isə 1,4 milyon nəfər izləyicisi olub.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.